QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim
üçün ən əziz qəzetdir

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 160 (5632) 28 **avqsut** 2018-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Azərbaycan: Almaniyanın əhəmiyyətli partnyoru

*Ölkəmizin sürətli və dinamik inkişafı, bu inkişafın uğurlu faktorları Avropa miqyasında təqdir edilməkdədir*



Səh 2

13



Polo üzrə Azərbaycan yığması İtaliyada keçiriləcək Avropa çempionatına yola düşür

14



Alman jurnalistinin Brejnev nostalgiyası

16



Neymar “Real”a keçməyə razılıq verib

# Azərbaycan: Almaniyanın əhəmiyyətli partnyoru

## *Ölkəmizin sürətli və dinamik inkişafı, bu inkişafın uğurlu faktorları Avropa miqyasında təqdir edilməkdədir*

***Almaniya Federativ Respublikasının Federal Kansleri xanım Angela Merkelin Azərbaycana səfəri bu gün də Avropanın aparıcı ictimai-siyasi dairələrində, mətbuat səhifələrində işıqlandırılmaqda və nəticələrə gəlinməkdədir. Ümumiyyətlə, Almaniyanın Avropanın əsas dövlətlərindən biri olaraq, xüsusilə, Azərbaycanla yüksək səviyyəli əməkdaşlıq, dostluq və tərəfdaşlıq istiqamətində maraqlı görünməsi özündə əhəmiyyətli məqamları ehtiva etməkdədir. Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin və Almaniya Federativ Respublikasının Federal Kansleri xanım Angela Merkelin birgə mətbuat konfransı zamanı önə sürülən fikirlər də, belə qənaətə gəlməyə zəmin yaradır ki, onun səfəri, eyni zamanda, tarixi fakt kimi qiymətləndirilə bilər.***



Azərbaycan Prezidenti Cənab İlham Əliyev: **"Əminəm ki, bu səfər nəticəsində, Almaniya-Azərbaycan əlaqələri sürətlə inkişaf edəcək, bu səfər əlaqələrimizə yeni təkan verəcəkdir"**



Belə ki, ölkə başçımız mətbuat konfransında da həmin amilə toxunub: "Bu, Almaniya Kanslerinin Azərbaycana ilk səferidir, bu, tarixi bir səfərdir. Biz bu səfərə çox böyük əhəmiyyət veririk. Əminəm ki, bu səfər nəticəsində, Almaniya-Azərbaycan əlaqələri sürətlə inkişaf edəcək, bu səfər əlaqələrimizə yeni təkan verəcəkdir".

Əsas məqamlardan biri də dövlət başçımızın sözügedən konfransında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı fikirlərinin alman ictimaiyyətinə səhih şəkildə çatdırması oldu. O cümlədən, regional təhlükəsizlik məsələləri ətrafında Cənab İlham Əliyevin fikirləri, bir daha sübut etdi ki, Azərbaycan öz haqq səsini daim beynəlxalq aləmə çatdırır, Ermənistanın işğalçılıq siyasəti barədə ətraflı məlumatlar verilir: "Mən xanım Kanslerə regional təhlükəsizlik məsələləri, xüsusilə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məlumat verdim. Bildiyiniz kimi, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan əraziləri, uzun illərdir ki, Ermənistanın işğalı altındadır. Bu işğal nəticəsində, bir milyondan çox azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşmüşdür. BMT Təhlükəsizlik Şurası münaqişə ilə bağlı dörd qətnamə qəbul etmişdir. Bu qətnamələrdə göstərilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Əfsuslar olsun ki, Ermənistan bu qətnamələrə məhəl qoymur və onları icra etmir. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir və münaqişə bu prinsiplər əsasında öz həllini tapmalıdır".

**"Son 15 il ərzində Azərbaycana 250 milyard dollar sərmayə qoyulubdur ki, bunun da təxminən yarısı xarici sərmayədir"**

Söz yox ki, xanım Merkelin rəsmi Bakı səfəri Azərbaycanla Almaniya arasında daha yeni və perspektivli ticari və iqtisadi dövrün başlanmasına da zəmin oldu. Ölkə rəhbərimizin çıxışında irəli sürdüyü fikirləri, eləcə də, ortaya qoyulan statistik rəqəmlər də qeyd edilən faktorlara əsaslanır: "Biz bu gün digər məsələlərlə bağlı fikir mübadiləsi apardıq. Aramızda olan ticarət dövriyyəsi artır. Bu gün biz, Almaniya və Azərbaycan biznes dairələrinin nümayəndələri ilə görüşəcəyik. Almaniyadan olan şirkətlər Azərbaycanda bir çox layihələrdə iştirak edirlər və əminəm ki, bu səfərdən sonra onların buradakı fəaliyyəti daha da genişlənəcək, buna böyük imkanlar var. Azərbaycan indi iqtisadi şaxələndirmə siyasətini uğurla aparır, çox böyük sərmayələr qoyulur, sərmayə iqlimi də çox müsbətdir. Son 15 il ərzində Azərbaycana 250 milyard dollar sərmayə qoyulubdur ki, bunun da təxminən yarısı xarici sərmayədir".

Ardı Səh. 3

# Azərbaycan: Almaniyanın əhəmiyyətli partnyoru

## *Ölkəmizin sürətli və dinamik inkişafı, bu inkişafın uğurlu faktorları Avropa miqyasında təqdir edilməkdədir*

Əvvəli Səh. 2

Ümumiyyətlə, Prezident İlham Əliyevin enerji təhlükəsizliyi barədə dediyi fikirləri, ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin edilməsindəki rolu, o cümlədən, demokratiya və insan haqlarının qorunması ilə bağlı aparılan fikir mübadilələri, Avropa İttifaqı-Azərbaycan əlaqələrinin müzakirələri, yuxarıda da qeyd edildiyi kimi, ölkələrimiz arasındakı münasibətlərdə yeni eranın başlanması kimi tarixə yazıldı. Təsadüfi deyil ki, ölkə rəhbərimiz Azərbaycan və Almaniya arasında sırf səmimiyyətin olduğunu vurğulayıb: "Bu göstərir ki, aramızda olan münasibətlər, doğrudan da, səmimidir, dostluq münasibətləridir və səfərin də bu münasibətlərin möhkəmlənməsində çox böyük rolu olacaqdır".



### Federal Kansler xanım Angela Merkel: **"Bizim ikitərəfli münasibətlərimiz onunla xarakterizə olunur ki, bu regionda Azərbaycanın simasında ən böyük, ən vacib ticarət tərəfdaşımız var"**

Qeyd edək ki, Almaniya Federativ Respublikasının Federal Kansleri xanım Angela Merkelin konfransda səsləndirdiyi fikirləri öz önəmi və səmimiyyəti ilə yadda qalıb. "Bu, Federal Kansler kimi mənim Azərbaycana ilk səfərimdir və ilk imkan idi ki, ölkələrimiz arasında münasibətləri burada açıq şəkildə müzakirə edək, əməkdaşlığımızı davam və inkişaf etdirək", deyə qeyd edən Merkel Cənubi Qafqaz turnesini Azərbaycana rəsmi səfəri ilə yekunlaşdırmasını Ermənistan və Gürcüstandan fərqli olaraq, ölkəmizə verdiyi önəm kimi təqdim edib. Məhz bu baxımdan, o, Azərbaycanı Cənubi Qafqaz regionunda Almaniyanın ən böyük və ən vacib tərəfdaşı kimi tərənnüm edib: "Bizim ikitərəfli münasibətlərimiz, onunla xarakterizə olunur ki, bu regionda Azərbaycanın simasında ən böyük, ən vacib ticarət tərəfdaşımız var. Azərbaycanda xarici ticarət palatamız var, burada 150 alman müəssisəsi fəaliyyət göstərir. Azərbaycan da, öz növbəsində, iqtisadiyyatın şaxələndirilməsinin həyata keçirilməsində maraqlıdır və Almaniya bu sahədə öz ciddi töhfəsini verə bilər".



Eyni zamanda, Azərbaycanın Avropa İttifaqının enerji şaxələndirilməsində güclü bir amil olduğunu deyən Almaniya Kansleri sözügedən əməkdaşlığın davamlılığında maraqlı olduğunu deyib: "Bizim bundan sonrakı dialoqumuzun intensivləşdirilməsi üçün şərait və əsaslar var".

### "Azərbaycanda alman xarici ticarət palatası var, burada 150-dən çox alman müəssisəsi fəaliyyət göstərir"

Yeri gəlmişkən, səfər çərçivəsində xanım Merkel Azərbaycanda fəaliyyət göstərən almaniyalı iş adamları ilə də görüşündə maraqlı fikirlərə toxunaraq, Azərbaycanın çox sürətlə inkişafa nail olduğunu vurğulayıb: "Azərbaycan çox sürətli inkişafa nail olub. Bu baxımdan, iqtisadiyyatın şaxələndirilməsi yaxşı faktdır. Alman iqtisadiyyatının da geniş şaxəli olması burada yaxşı partnyorluq üçün əsas yaradır. Azərbaycanda alman xarici ticarət palatası var, burada 150-dən çox alman müəssisəsi fəaliyyət göstərir. Prezident də qeyd etdi ki, ölkənin iqtisadiyyatının inkişafına töhfə vermək üçün digər müəssisələr də ürəkdən dəvət olunur. Bizim bunda böyük marağımız var".

Almaniyanın Federal Kanslerinin digər bir amili - Azərbaycanın müsəlman ölkəsi olmasına baxmayaraq, dünyəvi dövlət kimi tanındığını deməsi özündə bir sıra müsbət reallıqları göstərir: "Azərbaycan dünyəvi bir dövlətdir. Biz bu barədə danışdıq. Bu gün Azərbaycan dünyəvi müsəlman dövlətidir. Baxmayaraq ki, biz bu gün dünyanın bir çox ölkələrində islamlaşmanın daha da güclənməsi trendlərini müşahidə edirik. Azərbaycanın iqtisadiyyatı üçün bu uğurların böyük əhəmiyyəti var. Almaniya bu sahədə yaxşı partnyor ola bilər".

Beləliklə, fakt budur ki, artıq Azərbaycanın sürətli və dinamik inkişafı və bu inkişafın uğurlu faktorları Avropa miqyasında təqdir edilməkdədir. Almaniya Federativ Respublikasının Federal Kansleri xanım Merkelin Azərbaycana səfəri və bu səfər çərçivəsində səsləndirdiyi fikirləri bir daha bu gerçəkliyi isbatlamaqdadır.

*Rövşən NURƏDDİNOĞLU*

# Azərbaycan Prezidenti və Almaniyanın Federal Kansleri iş adamları ilə görüşüblər



İlham Əliyev: "Azərbaycan indi müasirləşmə dövrünü yaşayır, iqtisadi şaxələndirmə bizim əsas prioritetimizdir. Bütövlükdə deyə bilərəm ki, Azərbaycan iqtisadiyyatı çox sürətlə inkişaf edir"

***Avqustun 25-də Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Almaniya Federativ Respublikasının Federal Kansleri xanım Angela Merkelin iş adamları ilə görüşü olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti və Almaniyanın Federal Kansleri görüşdə çıxış ediblər.***

Azərbaycan Prezidenti İlham Əliyev:

- Hörmətli xanım Kansler, hörmətli qonaqlar, Sizi bir daha salamlayıram, bu gün biz Sizinlə çox geniş fikir mübadiləsi apardıq, bir çox məsələlər, o cümlədən iqtisadi-ticarət sahəsindəki əməkdaşlıq müzakirə olundu. Bu gün biz iş adamlarının iştirakı ilə görüşümüzü davam etdiririk. Qeyd etməliyəm ki, Almaniyadan olan şirkətlər Azərbaycanda uzun illərdir fəaliyyət göstərir, onlar bir çox sahələrdə işləyiblər, müxtəlif layihələr icra ediblər. Yalnız dövlət vəsaiti hesabına Almaniya şirkətləri dəyəri 1 milyard dollardan çox layihələr icra ediblər və əminəm ki, gələcəkdə bu rəqəm daha da artacaq.

Alman şirkətləri Azərbaycanda yaxşı tanınır, onların keyfiyyəti, texnologiyaları bizim ölkəmiz üçün çox böyük fayda verir. Azərbaycan indi müasirləşmə dövrünü yaşayır, iqtisadi şaxələndirmə bizim əsas prioritetimizdir. Bütövlükdə deyə bilərəm ki, Azərbaycan iqtisadiyyatı çox sürətlə inkişaf edir. Son 15 il ərzində Azərbaycan iqtisadiyyatı 3 dəfədən çox artıb, ölkəmizin makroiqtisadi vəziyyəti sabitdir, xarici borc ümumi daxili məhsulun cəmi 20 faizini təşkil edir, işsizlik 5 faiz səviyyəsindədir. Son 15 il ərzində Azərbaycana 250 milyard dollar sərmayə qoyulubdur. Davos Ümumdünya İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını rəqabətqabiliyyətliliyinə görə dünyada 35-ci yerə layiq görüb və bu, onu göstərir ki, iqtisadi şaxələndirmə siyasəti Azərbaycanda uğurla aparılır. Biz əlbəttə ki, böyük neft-qaz resurslarına malikik, onları ixrac edirik, amma əsas məqsədimiz qeyri-neft sektorunun inkişafıdır və bu sahədə əlbəttə ki, Almaniyadan olan şirkətlər bizə kömək göstərə bilərlər.

Hazırda kənd təsərrüfatının inkişafı, turizm, informasiya-kommunikasiya sektoru, infrastruktur layihələri, o cümlədən dəmir yollarının modernləşdirilməsi, inşaat sektoru və digər sahələr prioritetlər sırasındadır.

Əminəm ki, bu gün keçiriləcək söhbət nəticəsində yeni kontraktlar imzalanacaq, yeni əməkdaşlıq formatı yaradılacaqdır.

Beləliklə, Sizi bir daha salamlayıram və əminəm ki, səfərinizin son hissəsi də uğurlu keçəcək.

x x x

Almaniya Kansleri Angela Merkel:

- Biz bu gün ikitərəfli münasibətlər haqqında intensiv fikir mübadiləsi apardıq. Eləcə də Azərbaycanın Avropa İttifaqı ilə münasibətləri haqqında fikir mübadiləsi apardıq. Azərbaycanın geostrateji ərazidə yerləşməsi, İran və Rusiya ilə sərhədlərə malik olması, Türkiyə ilə sıx münasibətləri barədə də danışdıq.

Azərbaycan Avropanın enerji təminatının şaxələndirilməsində Avropa İttifaqı üçün mühüm bir ölkədir. Bu binadan da gördüyümüz kimi, Azərbaycan çox sürətli inkişafa nail olub. Bu baxımdan iqtisadiyyatın şaxələndirilməsi yaxşı faktdır. Alman iqtisadiyyatının da geniş şaxəli olması burada yaxşı partnyorluq üçün əsas yaradır. Azərbaycanda alman xarici ticarət palatası var, burada 150-dən çox alman müəssisəsi fəaliyyət göstərir. Prezident də qeyd etdi ki, ölkənin iqtisadiyyatının inkişafına töhfə vermək üçün digər müəssisələr də ürəkdən dəvət olunur. Bizim bunda böyük marağımız var.

Azərbaycan dünyəvi bir dövlətdir. Biz bu barədə danışdıq. Bu gün Azərbaycan dünyəvi müsəlman dövlətidir. Baxmayaraq ki, biz bu gün dünyanın bir çox ölkələrində islamlaşmanın daha da güclənməsi trendlərini müşahidə edirik. Azərbaycanın iqtisadiyyatı üçün bu uğurların böyük əhəmiyyəti var. Almaniya bu sahədə yaxşı partnyor ola bilər. Mən çox şadam ki, yaranmış bu imkandan istifadə edib sizi dinləyə biləcəyik. Biz istəyirik ki, iqtisadiyyat nümayəndələri çıxış etsinlər, öz fikirlərini bildirsinlər. Nə qədər konkret danışılsa, alman iqtisadiyyatından nümayəndələr bir o qədər çox söz deyə bilərlər. Burada İqtisadiyyat Nazirliyindən dövlət katibi iştirak edir. Nazir müavini və o, Azərbaycan tərəfindən deyilənləri qeyd edərək Almaniya tərəfindən görülən işlər haqqında fikirlərini sonra paylaşacaqlar.



Angela Merkel: "Azərbaycan Avropanın enerji təminatının şaxələndirilməsində Avropa İttifaqı üçün mühüm bir ölkədir"

# Dövlət başçısının regionlara hər səfəri sosial rifahın daha da inkişafına doğru atılan uğurlu addımdır

*İlham Əliyev: "Məqsədimiz odur ki, insanlara yaxşı maaş verilsin"*



## Rəsmi xronika

Prezident İlham Əliyev Şamaxı rayonunda "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev İsmayıllı şəhərində yeni uşaq bağçası binasının tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev İsmayıllı şəhərində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına dair tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev İsmayıllı rayonunda yeni xalça istehsalı emalatxanasının tikintisi, təchizatı və infrastrukturunun yaradılması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Şamaxı rayonunun Çuxuryurd-Sis-Qaleybuğurd-Keçməddin-Qaladərəsi avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.





***Bu gün regionlarımızın günbəgün inkişaf etməsi ölkəmizdə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsi olduğunu təsdiq edən ən mühüm amildir. Eyni zamanda, onu da vurğulamaq lazımdır ki, regionların sosial-iqtisadi inkişafı sahəsində qəbul edilən və uğurla həyata keçirilən dövlət proqramlarında, habelə, regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı Prezident İlham Əliyevin imzaladığı sərəncamlarda nəzərdə tutulan vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə təkan verir.***

Ən mühüm məsələ isə, Prezident İlham Əliyevin, mütəmadi olaraq, bölgələrə səfər etməsi və səfərləri çərçivəsində müxtəlif təyinatlı infrastruktur obyektlərinin açılış və təməlqoyma mərasimlərində iştirakı, müəssisələrin fəaliyyəti ilə yaxından tanış olması, eləcə də, ictimaiyyətlə keçirdiyi görüşlərdə qaldırılmış məsələlərin həlli məqsədilə vəsaitin ayrılması regionların inkişafına göstərdiyi diqqətin bariz nümunəsidir. Həmçinin, xüsusi olaraq, vurğulamaq lazımdır ki, son illər ərzində ölkəmizin sosial-iqtisadi inkişaf istiqamətində böyük məsafələr qət edən, xalqa verdiyi vədi yerinə yetirən və Ulu Öndər Heydər Əliyev siyasi kursunun alternativsizliyini ortaya qoyan ölkə başçısı İlham Əliyevin, müntəzəm olaraq, regionlara səfərləri zamanı insanlarla həmişə təmasda olması, sıravi adamlarla, ziyalılarla, gənclərlə görüşləri Ona öz işini səmərəli qurmaqda, nöqsanları aradan qaldırmaqda, qarşıya yeni vəzifələr qoyub həyata keçirməkdə imkanlar yaradır və hakimiyyətlə xalqın birliyini möhkəmləndirir.



**Ardı Səh. 6**

# Dövlət başçısının regionlara hər səfəri sosial rifahın daha da inkişafına doğru atılan uğurlu addımdır

## *İlham Əliyev: "Məqsədimiz odur ki, insanlara yaxşı maaş verilsin"*

Əvvəli Səh. 5



Məhz bunun nəticəsidir ki, son on beş ildə həyata keçirilən məqsədyönlü islahatlar, bir sıra ümummilli proqramlar, mühüm infrastruktur layihələrin uğurla reallaşdırılması ölkəmizin sosial-iqtisadi mənzərəsini xeyli dərəcədə dəyişmiş, tarazlı inkişaf və davamlı yüksəliş üçün möhkəm əsas yaratmışdır. Təkcə, onu demək kifayətdir ki, ötən illər ərzində Azərbaycanda həyata keçirilən uğurlu neft strategiyası və iqtisadi islahatlar nəticəsində iqtisadiyyatımız dəfələrlə artmış, ölkənin ümumi valyuta ehtiyatları çoxalmışdır.

### İctimaiyyətlə bir olan dövlət başçısı

Prezident İlham Əliyevin Azərbaycanın şəhər və rayonlarına hər bir səfəri insanların qayğı və problemlərinə həssas münasibətin nümayişinə çevrilir. Bütün bunlarla yanaşı, dövlət başçısının cəmiyyətin sosial sifarişinə uyğun çevik qərarlar qəbul etməsi, problemlərə böyük həssaslıqla yanaşması, daim ictimaiyyət arasında olması cəmiyyətin, nəinki tərəqqisini, həm də xoş ovqatını təmin edən mühüm cəhətlərdir. Ötən illər ərzində ölkəmizin sosial-iqtisadi inkişafı istiqamətində böyük məsafələr qət edən, xalqa verdiyi bütün vədləri yerinə yetirən dövlətimizin başçısı İlham Əliyev hər bir addımda vətəndaşların mənafeyi əsas amillərdəndir.

Bu günlərdə regionlara növbəti səfərləri çərçivəsində Prezident İlham Əliyev və Birinci Xanım Mehriban Əliyeva Şamaxı və İsmayıllı rayonlarında olub və bu bölgəyə səfəri bir sıra sosial və iqtisadi təyinatlı obyektlərin açılışı ilə əlamətdar olub.







Prezident İlham Əliyev və Birinci Xanım Mehriban Əliyeva Şamaxı rayonunun ən qədim kəndlərindən olan Dəmirçi kəndində görülən işlərlə tanış olub. Məlumat verilib ki, kəndin mərkəzi hissəsində turizm infrastrukturu, o cümlədən, dəmirçi və misgərlik emalatxanası, kafe, çayxana, təndir, "Azərxalça" ASC-nin guşəsi, suvenir mağazası və "ABAD" dükanları, avtomobil dayanacağı yaradılıb, "Qala" və bulaq kompleksi inşa edilib.

Muzeydə yaradılan şəraitlə tanış olan Prezident İlham Əliyevin və Birinci Xanım Mehriban Əliyevanın diqqətinə çatdırıldı ki, muzey binasının inşasına bu ilin fevralında başlanıb. Yüksək səviyyədə həyata keçirilən tikinti işləri avqustda başa çatdırılıb. Birmərtəbəli bina açıq və qapalı ekspozisiya zallarından və iki yardımçı otaqdan ibarətdir. Buradakı açıq muzey, xüsusilə, diqqəti cəlb edir.

Prezidenti İlham Əliyev və Birinci Xanım Mehriban Əliyeva yeni salınan Dəmirçi-Lahıc avtomobil yolunun açılışında da iştirak ediblər. Həmçinin, dövlət başçısı və xanımı İsmayıllı rayonunun Lahıc qəsəbəsində yeni inşa olunan tam orta məktəb binasının açılışında iştirak ediblər. 400 şagird yerlik üçmərtəbəli binada tikinti işləri yüksək səviyyədə və keyfiyyətlə yerinə yetirilib. Müxtəlif fənn kabinetləri və laboratoriyaların yaradıldığı məktəbdə bütün sinif otaqları əyani vəsaitlərlə təchiz olunub. Burada idman zalı və 175 yerlik akt zalı da yaradılıb. Videomüşahidə sisteminin quraşdırıldığı məktəb mərkəzləşdirilmiş istilik sistemi ilə təchiz edilib.

Ardı Səh. 7

# Dövlət başçısının regionlara hər səfəri sosial rifahın daha da inkişafına doğru atılan uğurlu addımdır

## *İlham Əliyev: "Məqsədimiz odur ki, insanlara yaxşı maaş verilsin"*

**Əvvəli Səh. 6**



Səfər çərçivəsində İsmayıllı rayonunun Lahıc qəsəbəsinə təbii qazın verilməsi mərasimi də baş tutub. Lahıc qəsəbəsi və ətraf dörd kənd - Ərəgit, Gəndov, Namazgah və Qaraqaya kəndləri ilk dəfə qazlaşdırılıb, ümumilikdə, 899 abonent mavi yanacaqla təmin edilib. Yüzlərlə fərdi evin qazlaşdırılması üçün 79 min 281 metr uzunluğunda müxtəlif diametrli metal və polietilen borulardan ibarət daşıyıcı-paylayıcı qaz xətlərinin çəkilməsi, hər bir mənzilin qaz sayğacı ilə təmin olunması layihə üzrə təsdiqlənib. Bu ilin yanvar ayından başlayan işlər mürəkkəb relyefə və çətin hava şəraitinə baxmayaraq, uğurla başa çatdırılıb.

Şamaxıya səfər çərçivəsində Meysəri kəndindəki "Şirvan şərabları" MMC-nin üzümçülük və şərabçılıq kompleksinin açılışında iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev müəssisənin kollektivi ilə görüşü zamanı qeyd edib ki, əsas məqsədimiz də odur ki, iş yerləri yaradılsın, insanlara yaxşı maaş verilsin: "Şadam ki, Şamaxı rayonunda üzümçülük geniş vüsət alıb. Gözəl üzüm bağları salınıb, vətəndaşlar işlə təmin olunub. Yəni ölkəmizdə kənd təsərrüfatı ilə bağlı aparılan siyasət, bax, bu yeni salınan üzüm bağlarında özünü göstərir".

Dövlət başçısı onu da qeyd edib ki, üzümçülük əmək tutumlu kənd təsərrüfatı sahəsidir: "Mənə verilən məlumata görə,





burada 300 hektarda salınmış üzüm bağlarında 200-ə yaxın insan işlə təmin olunub. Bu, kəndin sakinləridir. Mənə verilən məlumata görə, bu kənddə işsizliklə bağlı problemlər də aradan götürülüb. Bizim əsas məqsədimiz də odur ki, iş yerləri yaradılsın, insanlara yaxşı maaş verilsin. Hər bir vətəndaş halal zəhməti ilə öz həyatını qursun, ailəsini saxlasın və firavan yaşasın".

Dövlət başçısı xatırladıb ki, Şamaxı rayonunda diaqnostika mərkəzi, mərkəzi rayon xəstəxanası, olimpiya kompleksi, mədəniyyət mərkəzi və 40-dan çox məktəb tikilib təmir edilib: "Nəinki Azərbaycanın, bütün islam aləminin önəmli məbədi olan Şamaxı Cümə məscidi mənim təşəbbüsümlə əsaslı şəkildə təmir edilib. Demək olar ki, yenidən qurulub. Bu məscid 743-cü ildə tikilib və bizim milli sərvətimizdir".

Beləliklə, sadalanan rəqəmlər, bir daha onu göstərir ki, yürüdülən siyasət dövlət başçımızın düşünülmüş, məqsədyönlü siyasətidir və bu siyasət regionlarımızın yüksək inkişafını təmin edəcək. Prezident İlham Əliyevin yürütdüyü siyasət sayəsində bu gün Azərbaycanın regionlarında yol infrastrukturu yenilənib, su, qaz və elektrik enerjisi təminatı xeyli yaxşılaşdırılıb. Bütün bunlar, təbii ki, regionların inkişafına olan diqqətin birbaşa ifadəsidir. Rəqəmlərə diqqət yetirmək kifayətdir.



Beləliklə, Prezident İlham Əliyevin istər xarici, istərsə də daxili məsələlərdə nümayiş etdirdiyi siyasi iradə Azərbaycanın daha da qüdrətlənməsinin, ölkənin dinamik inkişafının əsas xəttini təşkil etməklə yanaşı, əhalinin sosial rifahının daha da yaxşılaşdırılması istiqamətində mütərəqqi siyasətini reallaşdırmış olur. Bu isə, son nəticədə, ölkəmizin daha da inkişaf etməsinə, sosial rifahın yüksək səviyyəyə çatdırılmasına və iqtisadiyyatımızın güclənməsinə geniş imkanlar yaradır.

**RƏFİQƏ KAMALQIZI**

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

28 avqust 2018-ci il

# Mehriban xanım Əliyeva: Şəfqət, mərhəmət, dövlətə və xalqa xidmət nümunəsi

***Azərbaycan Respublikasının I Vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva Azərbaycanda təhsilin, mədəniyyətin, səhiyyənin, idmanın inkişafı, ölkəmizlə bağlı həqiqətlərin dünyada təbliği, xalqımızın maddi-mənəvi dəyərlərinin yenidən dirçəldilməsi, onların qorunub saxlanılması, dünya xalqlarının mədəniyyətlərinə inteqrasiyası istiqamətində böyük işlər görüb. Azərbaycan və dünya xalqlarının sosial-mənəvi həyatına verdiyi töhfələrlə yanaşı Mehriban xanım Əliyeva ictimai-siyasi fəaliyyəti ilə də nümunə təşkil etməkdədir.***



## Mehriban xanım Əliyevanın fəaliyyəti dünya miqyasında yüksək dəyərləndirilir

Mehriban xanım Əliyevanın gördüyü işlər təkcə Azərbaycanda deyil, dünya miqyasında da yaxından izlənilir və yüksək qiymətləndirilir. Elə buna görədir ki, Mehriban xanım Əliyevanın genişmiqyaslı fəaliyyəti daim diqqət mərkəzində olub və ayrı-ayrı dövlətlər, beynəlxalq təşkilatlar tərəfindən müxtəlif mükafatlara layiq görülüb. Mehriban xanım Əliyeva 2004-cü il avqustun 13-də Azərbaycanın şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki fəaliyyətinə görə YUNESKO-nun xoşməramlı səfiri adına, 2005-ci il iyunun 9-da ictimai, messenatlıq və xeyriyyəçilik fəaliyyətinə, həmçinin, təhsil və mədəniyyət müəssisələrinin dəstəklənməsinə, Rusiya və Azərbaycan xalqları arasında dostluğun möhkəmlənməsinə sanballı töhfələrinə görə Rusiyanın "Yüzilliyin messenatları" Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut Xaç" ordeninə, sivilizasiyalararası dialoq daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyətinə, qayğıya ehtiyacı olan uşaqlara diqqətinə, onların yaşayış şəraitinin yaxşılaşmasına, təhsilə, həmçinin, İslam aləmində görülən işlərə böyük dəstəyinə görə 2006-cı il noyabrın 24-də İSESKO-nun xoşməramlı səfiri adına, 2007-ci ildə bəşəriyyətin ali ideyalarına xidmətdə qazandığı görkəmli nailiyyətlərə görə "Qızıl ürək" beynəlxalq mükafatına, 2009-cu ildə Azərbaycanın ictimai-siyasi və mədəni həyatında səmərəli fəaliyyətinə görə "Heydər Əliyev Mükafatı"na, həmçinin, iki mötəbər mükafata - Fransa dövlətinin "Şərəf Legionu" ordeninə və YUNESKO-nun "Qızıl Motsart" medalına, eyni zamanda, Krans Montana Forumunun Qızıl medalına, Polşa Respublikasının "Xidmətlərə görə" Böyük Komandor Xaçı ordeninə, İslam mədəni irsinin dünyada geniş təbliği, Azərbaycanda və ölkə hüdudları xaricində nəcib xeyriyyə fəaliyyəti, təhsilə, tibbə verdiyi böyük töhfələrə görə Küveyt Dövlətinin Fəxri diplomuna, Azərbaycanda "Heydər Əliyev" ordeninə, Rusiyada Müqəddəs Mələksima Knyaginya Olqa ordeninə, İtaliyanın "Xidmətlərinə görə" Böyük Xaç Kavaleri ordeninə layiq görülüb.

## Azərbaycanda müasir xeyriyyəçilik institutunun əsası Mehriban xanım Əliyeva tərəfindən qoyulub

Azərbaycan cəmiyyəti üçün həyati əhəmiyyət daşıyan, Mehriban xanım Əliyevanın fəaliyyət istiqamətlərindən biri də xeyriyyəçilikdir. Mehriban xanımın bu sahədəki fəaliyyətini izlədikdə bir daha əminliklə demək olar ki, Azərbaycanda müasir xeyriyyəçilik institutunun əsası Mehriban xanım Əliyeva tərəfindən qoyulub. Məhz, bu gün ölkəmizdə Mehriban xanım Əliyevanın rəhbərliyi ilə xeyriyyəçilik sektorunun köhnə filantropiyaya xas olan paterkalizm ruhundan azad olunması və onun mütəşəkkil, ölkə miqyasında konsolidasiya edilmiş, öz standartları, infrastrukturu və texnologiyaları olan müasir "sənaye"yə çevrilməsini müşahidə edirik.

Mehriban xanım Əliyeva xeyriyyəçilik fəaliyyəti ilə Azərbaycanda bu sahədə sosial-fəlsəfi təməl yaratmaqla yanaşı, gələcək nəsillərə nəcib bir yolun əsas konturlarını göstərmiş olur. Mehriban xanım Əliyeva müsahibələrinin birində qeyd edir ki, müasir Azərbaycanda xeyriyyəçilik institutunun inkişaf perspektivləri ilk növbədə, ölkəmizin gələcək iqtisadi inkişafı, sosiomədəni modernləşməsi, vətəndaş cəmiyyətinin möhkəmlənməsi və cəmiyyətimizin mənəvi tərəqqisi ilə bağlıdır: "Çünki bu amillər bir-birilə bağlıdır və bütövlükdə xeyriyyəçilik sahəsində dəyişikliklər tələb edən, eyni zamanda, bunun üçün zəruri imkanlar yaradan prinsipcə yeni mühit formalaşdırır. Şübhəsiz, iqtisadiyyat inkişaf etdikcə, vətəndaşlarımızın maddi rifahı yüksəldikcə, əhalinin sosial müdafiəsi və dəstəklənməsi tədbirləri gücləndikcə, xeyriyyəçiliyin strukturunda əhalinin imkansız təbəqəsinə birbaşa maddi yardımın xüsusi çəkisinin azalması labüddür. Buna müvafiq olaraq, xeyriyyəçilik resursları getdikcə daha artıq dərəcədə başqa ictimai ehtiyaclara - mədəniyyətin, elmin, təhsilin, səhiyyənin, idmanın inkişafına, təbii mühitin qorunmasına və yaxşılaşdırılmasına, digər oxşar sahələrə yönələcəkdir. Azərbaycan cəmiyyətinin sosiomədəni transformasiyası xeyriyyəçilərin öz fəaliyyətlərində "ənənəvi" cəmiyyət üçün daha çox səciyyəvi olan adət və ənənələri deyil, səmərəlilik, praqmatizm, ictimai faydalılıq mülahizələrini və özlərinin üstünlük verdikləri məqamları rəhbər tutacaqlarına gətirib çıxaracaq".

Göründüyü kimi, bu gün ölkəmizdə fərdi və korporativ filantropiya ilə yanaşı, xeyriyyəçilik sisteminin bir sosial institut kimi iş mexanizmində xüsusi imkanları və məxsusi yeri olan mütəşəkkil vətəndaş xeyriyyəçilik sektoru formalaşır və o, gələcək perspektivlərdə daha da möhkəmlənəcək. Təbii cəmiyyətin demokratikləşməsi və humanistləşməsi yolu ilə irəlilədikcə, ölkəmizdə xeyriyyəçiliyin tərəqqisi yolundakı mənəvi-əxlaqi maneələr də aradan qalxacaq. Əlbəttə ki, bu vacib sektorda Mehriban xanım Əliyevanın əsasını qoyduğu ənənə və nümunəvi fəaliyyət müasir Azərbaycan xeyriyyətçilik institutunun daha da inkişafına yeni imkanlar açır, stimul verir.

## Heydər Əliyev Fondu: sosial-mədəni və humanitar layihələrin təşəbbüskarı, insanların ümid yeri

Mehriban xanım Əliyeva 2004-cü ildən təsis edilmiş Heydər Əliyev Fondunun Prezidenti kimi Azərbaycan cəmiyyəti və dünya xalqları üçün xüsusi əhəmiyyəti ilə seçilən sosial-humanitar layihələrin təşəbbüskarı və reallaşdırıcısı olub. Yarandığı gündən qarşısına qoyduğu ali məqsədlərin gerçəkləşdirilməsi naminə inamla çalışan, qısa müddətdə strateji əhəmiyyət daşıyan bir sıra layihələri gerçəkləşdirən Heydər Əliyev Fondu son 14 ildə cəmiyyətdə xeyirxahlıq ünvanına çevrilib. Ulu öndər Heydər Əliyevin ideallarından ruh alan Fond Onun nəcib və müqəddəs əməllərini yaşatmaq üçün ən müxtəlif sahələrdə sistemli tədbirlər həyata keçirib, hər bir vətəndaşın zəruri istək və arzularının reallaşmasına, problemlərinin operativ həllinə maddi-mənəvi dəstək verib. Heydər Əliyev Fondu ötən illərdə ictimaiyyətin ən müxtəlif təbəqələri ilə əlaqələrini genişləndirməklə, Azərbaycanın hərtərəfli inkişafına və vətəndaş cəmiyyəti quruculuğu prosesinin sürətləndirilməsinə sanballı töhfələrini verib. Fondun fəaliyyəti, eyni zamanda, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinin yüksək səviyyədə təminatına yönəlib, qısa müddətdə bu sahədə böyük işlər görülüb.

Heydər Əliyev Fondu Mehriban xanım Əliyevanın rəhbərliyi ilə milli-mənəvi dəyərlərin qorunması və Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması ilə bağlı işlərin aparılmasına kömək edib, əhalinin rifahının yüksəldilməsinə yönəldilmiş müxtəlif proqram və tədbirləri, elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələri dəstəkləyib, uşaq və gənclərin sağlam, milli-mənəvi dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə töhfələrini verib, Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin reallaşdırılmasına yardım göstərib

2004-2018-ci illər ərzində fonda müraciət etmiş insanlara kömək göstərilməsi üçün səhiyyə müəssisələri ilə sıx əlaqə qurulub, minlərlə insanın müayinə və müalicəsi üçün lazımi tədbirlər həyata keçirilib. Təhsil ocaqlarındakı kimsəsiz uşaqların sağlamlığının təmin olunması istiqamətində həyata keçirilən sosial layihələr xüsusilə təqdirəlayiqdir. Bu layihələr səhhətindəki problemlər üzündən əziyyət çəkən insanları yenidən sağlam həyata qaytarır və onlara həyat eşqi verir. Fondun "Diabetli uşaqlara ən yüksək qayğı" və "Talassemiyasız həyat naminə" layihələri də cəmiyyətdə daha böyük diqqət və rəğbətlə qarşılanıb. Heydər Əliyev Fondu ürək xəstəliklərindən əziyyət çəkən körpələrin bir qisminə xarici ölkələrdə cərrahiyyə əməliyyatı aparılmasına kömək göstərib.

Heydər Əliyev Fondunun təh-

# Mehriban xanım Əliyeva: Şəfqət, mərhəmət, dövlətə və xalqa xidmət nümunəsi

sillə bağlı layihələri də vətəndaşların təhsil hüquqlarının daha etibarlı təminatı məqsədinə xidmət edir. Bunun üçün ölkədə müasir tipli yeni məktəblərin inşasının, tədris prosesinə normal şərait yaradılmasının zəruriliyini düzgün qiymətləndirən Fond qarşıya qoyduğu strateji hədəflərə doğru inamla addımlayıb, bir sıra uğurlu nəticələr əldə edib. Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən, dövlət qurumlarının və vətəndaş cəmiyyətinin bəzi strukturlarının da dəstəklədiyi "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində Azərbaycanın müxtəlif regionlarında 300-dən çox yeni məktəb binası inşa olunub və lazımi avadanlıqlarla təchiz edilib.

Fondun təhsillə bağlı layihələri sırf Azərbaycanla məhdudlaşmır. Belə ki, 2007-ci ildə Hollandiyanın paytaxtı Amsterdamda fəaliyyətə başlayan Azərbaycan məktəbi Heydər Əliyev Fondunun diqqətindən kənarda qalmayıb, məktəbə kompüter dəsti və dərs vəsaitləri göndərilib. 2008-ci ilin fevralında isə Fondun "Təhsilə dəstək" layihəsi çərçivəsində Pakistanın Müzəffərabad şəhərində dağıdıcı zəlzələ nəticəsində yararsız vəziyyətə düşən məktəb yenidən tikilərək, yüksək səviyyəli tədrisə imkan yaradan avadanlıqlarla təmin olunub. Eyni zamanda, Azərbaycanın birinci xanımının təşəbbüsü ilə Rusiyada, Gürcüstanda, Misirdə yeni məktəb binaları tikilərək istifadəyə verilib.

Bütün bununla yanaşı, Fond xarici ölkələrdəki unikal mədəniyyət abidələrinin bərpası prosesində də yaxından iştirak edir. Fond Fransada Dünya Mədəni İrs Siyahısına daxil edilmiş Versal sarayını, Parisdə XIV əsrə aid Notr-Dam, Strasburq Kafedral kilsələrinin, İkinci Dünya müharibəsində dağılmış Berlin şəhər Sarayının, həmçinin Vatikan arxivlərində saxlanılan Azərbaycan orta əsrlər əlyazmalarının bərpa olunmasına kömək edib. Heydər Əliyev Fondu ilə Müqəddəs Arxeologiya üzrə Papa Komissiyası arasında imzalanmış Anlaşma Memorandumuna əsasən, Fond Romanın Kapitoli Muzeyində bərpa işlərinin həyata keçirilməsinə də dəstək verib.

## Azərbaycan həqiqətlərinin carçısı - Heydər Əliyev Fondu

Azərbaycan mədəniyyətinin, incəsənətinin, musiqisinin, mətbəxinin, ümumiyyətlə milli mədəni-mənəvi dəyərlərimizlə əlaqəli bütün tarixi nailiyyətlərimizin dünya miqyasında təbliğ edilməsi Mehriban xanım Əliyevanın dövlətimiz və xalqımız qarşısında gördüyü misilsiz xidmətlərin tərkib hissəsidir. Təsadüfi deyildir ki, Heydər Əliyev Fondu irimiqyaslı, möhtəşəm layihələri ilə Azərbaycanın dünya miqyasında multikultural, tolerant ölkəyə çevrilməsinə də güclü dəstək olub. Elə Prezident İlham Əliyev də Fondun fəaliyyətini yüksək qiymətləndirərək qeyd edib ki, "Mehriban Əliyevanın rəhbərliyi ilə fond nəinki Azərbaycanda, eyni zamanda, regionda görülən işlərin həcminə görə ən böyük ictimai təşkilata çevrilmişdir".

Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin də beynəlxalq aləmə çatdırılması üçün bütün mövcud imkanlardan istifadə edir, mədəniyyət, təhsil, səhiyyə və digər sahələrdə həyata keçirilən layihələrin məhz bu məqsədə yönəlməsinə çalışır. Elə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, təcavüzkarın ifşası baxımından Heydər Əliyev Fondunun müxtəlif dillərdə nəşr etdirdiyi kitablar, ingilis, fransız, ərəb, alman, rus dillərində "Qarabağ həqiqətləri" bukletlər Fondun bu sahədəki fəaliyyətinin əyani vəsaitləridir.

Heydər Əliyev Fondu Azərbaycan həqiqətlərini və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mahiyyətini beynəlxalq ictimaiyyətə çatdırmaq üçün dünyanın aparıcı dövlətlərinin paytaxtlarında və böyük şəhərlərində dünya ictimaiyyətinin diqqətini çəkən, həmin ölkələrin siyasi, mədəni, elmi elitasını bir araya toplayan tədbirlərə də imza atıb. Məhz, Moskvada, Berlində, Strasburqda, Buxarestdə, Cenevrədə, Ankarada, İstanbulda, Parisdə, Vaşinqtonda, Nyu Yorkda, Varşavada, Londonda, Dubayda, Haaqada, Kiyev və Tbilisidə Xocalı soyqırımının ildönümünə həsr olunmuş aksiyaların keçirilməsi, xarici ölkələrdə Fondun hazırladığı "Xocalı soyqırımı" filmi ilə yanaşı, insanlığa qarşı törədilən cinayəti əks etdirən müxtəlif ekspozisiyalar nümayiş olunması, Fondun dəstəyi və təşkilatçılığı ilə məktəblilər arasında keçirilən "Xocalı uşaqların gözü ilə" rəsm müsabiqəsinin, əl işlərinin, fotoşəkillərin dünyanın qabaqcıl ölkələrində keçirilən sərgilərdə nümayiş etdirilməsi, Fondun nəşr etdirdiyi "Qarabağ həqiqətləri" toplusu və "Azərbaycana qarşı müharibə: Mədəni irsin hədəfə alınması" kitablarının dünya ölkələrində paylanması beynəlxalq ictimaiyyətdə Azərbaycan həqiqətləri barədə dolğun təsəvvürün formalaşdırılması işinə xidmət edir, töhfələrini verir.

## Dövlətə və xalqa xidmətin nümunəsi

Azərbaycanın I Vitse-prezidenti Mehriban xanım Əliyeva sosial, humanitar, mədəni sahələrdəki işləri ilə yanaşı, ictimai-siyasi fəaliyyətilə də nümunə təşkil edir. Qeyd etmək yerinə düşər ki, Mehriban xanım Əliyeva Ulu Öndərin yaratdığı Yeni Azərbaycan Partiyasının 1992-ci ildən fəal üzvü olub və bu gün də partiyanın Sədr müavini kimi müasir və müstəqil dövlətimizin daha da inkişaf etməsi prosesinin ən aparıcı simasına çevrilib.

Heydər Əliyev Fonduna rəhbərlik etdiyi, Milli Məclisə deputat seçildiyi vaxtdan bəri ölkə həyatının elə bir sahəsi olmayıb ki, Mehriban xanım Əliyevanın diqqətindən kənarda qalsın. Daim seçicilərinin yanında olan, onların problemlərini dinləyən və həll edən deputat kimi bütün xalqın rəğbətini və məhəbbətini qazanan Mehriban xanım Əliyevanın I Vitse-prezident təyin edilməsi hər bir azərbaycanlını ürəkdən sevindirirdi. Çünki, Ümummilli lider Heydər Əliyevin ölməz ideyalarına bütün varlığı ilə bağlı olan, Prezident İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli daxili və xarici siyasətə layiqli töhfələrini verən Heydər Əliyev Fondunun Prezidentinin Ulu Öndərin memarı və qurucusu olduğu müstəqil Azərbaycan dövlətinin ali idarəetmə sistemində ikinci yüksək vəzifəni daşımasına çoxdan siyasi və mənəvi haqqı çatırdı. Xalqımızın milli mədəniyyətinin, mənəvi dəyərlər sisteminin qorunmasında, cəmiyyətə sağlam dəyərlərin aşılanmasında Mehriban xanımın müstəsna xidmətləri onu cəmiyyətə mötəbər ictimai-siyasi xadim kimi tanıtmışdı. Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olunmasının səbəbi böyük idarəçilik təcrübəsi və xalqının sevgisini qazanması ilə yanaşı, həm də ölkə Prezidenti İlham Əliyevin ən yaxın silahdaşı, yardımçısı, mənəvi dəstəkçisi olması ilə bağlı idi. Daha doğrusu, Azərbaycanın birinci xanımı Birinci vitse-prezident təyin olunana qədər deputat və fond rəhbəri kimi reallaşdırdığı uğurlu layihələrlə, dövlət müstəqilliyimizin əsaslarının və Prezident İlham Əliyevin liderlik nüfuzunun möhkəmlənməsinə geniş ictimai dəstək qazandırmışdı.

Mehriban xanım Birinci vitse-prezident kimi keçirdiyi ilk müşavirədə də qaçqın və məcburi köçkünlərin problemlərini, bu istiqamətdə görülən işləri diqqət mərkəzində saxladı, bundan sonra da görüləcək işləri, qarşıda duran vəzifələri diqqətə çatdırdı. O, yeni missiyasına başlamaqla ağır sosial şəraitdə yaşayan insanların problemlərinin həlli üçün qısa müddətdə yeni layihənin həyata keçiriləcəyini vurğuladı. Təsadüfi də deyildir ki, Mehriban xanım Əliyeva mətbuata müsahibələrinin birində belə deyir: "Uğur xatirinə uğur, hakimiyyət xatirinə hakimiyyət və ambisiya mənim üçün heç vaxt aparıcı motiv olmayıb. Əsas məsələ odur ki, ehtiyacı olan insanlara kömək edəsən".

Bir sözlə, Azərbaycanın I Vitse-prezidenti Mehriban xanım Əliyevanın işləri Azərbaycanda və dünya ölkələrində dərin hörmətə, rəğbətə, xoş münasibətə əsas yaradan ali fəaliyyət nümunəsi kimi qəbul edilməkdədir.

***Siyavuş Novruzov, Yeni Azərbaycan Partiyası icra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlarla iş komitəsinin sədri***

## Avropa Komissiyasının vitse-prezidenti "Caspian Energy Forum Baku"da iştirak edəcək



Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şefçoviçin "Caspian Energy Forum Baku"da iştirakı nəzərə tutulur. AZƏRTAC forumun saytına istinadla xəbər verir ki, Maroş Şefçoviçin Azərbaycan hökumətinin və "Caspian European Club"un dəstəyi ilə sentyabrın 20-də keçiriləcək VII Beynəlxalq "Caspian Energy Forum Baku-2018"də iştirakı planlaşdırılır.

## Şamaxıda "ASAN xidmət" mərkəzi inşa olunacaq



Prezident İlham Əliyev avqustun 27-də "Şamaxı rayonunda "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisi haqqında" Sərəncam imzalayıb. AZƏRTAC xəbər verir ki, Şamaxı rayonunda "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.52.4-cü yarımbəndində göstərilmiş məbləğin 5 milyon manatı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə ayrılıb.

## 2001-2017-ci illərdə Neft Fondunun daxilolmaları 137,87 milyard dollar olub

2001-2017-ci illərdə Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) daxilolmaları 137,87 milyard ABŞ dolları təşkil edib. AZƏRTAC xəbər verir ki, bu barədə ARDNF-in 2017-ci il üzrə fəaliyyəti haqqında hesabatı, maliyyə fəaliyyəti haqqında hesabatının auditinin nəticələrini özündə əks etdirən illik hesabatında deyilir. Bildirilir ki, 2001-2017-ci illər ərzində Neft Fondunun daxilolmaları 137,87 milyard dollar səviyyəsində olub və bu vəsaitin təxminən 35,8 milyard dolları, yəni 26 faizi yığıma yönəldilib.

# Mehriban Əliyeva: birinci xanım olmağın məsuliyyəti və sərhəd tanımayan xeyirxahlıq

***Azərbaycanın Birinci vitse-prezidenti və birinci xanımı Mehriban Əliyeva milyonlarla insanın sevgisini qazanıb. Bunun səbəbi təkcə tutduğu yüksək vəzifə və mövqe ilə bağlı deyil. Onu köməyə və qayğıya ehtiyacı olan insanların, xüsusilə uşaqların yanında tez-tez görmək olar. Bəzən hətta bayramları onlarla birgə keçirir. Talassemiyaya tutulmuş uşaqlar, erməni işğalı nəticəsində yurd yerindən didərgin salınmış məcburi köçkünlər Mehriban Əliyevaya pənah yeri kimi baxır və öz ümidlərində yanılmırlar.***



Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu dövlətin təhsillə bağlı strategiyasının həyata keçirilməsində yaxından iştirak edir. Fondun bu sahədə gördüyü işlər sırasında "Yeniləşən Azərbaycana yeni məktəb" proqramının müstəsna əhəmiyyəti var. 2003-cü ildən indiyədək ölkədə 3 mindən çox məktəb tikilib, geniş bazaya malik təhsil infrastrukturu yaradılıb. Beləliklə ölkədə təhsilə qayğı, onun maddi-texniki bazasının möhkəmləndirilməsi işi ümummilli səviyyəyə qaldırılıb.

Heydər Əliyev Fondu öz humanitar layihələri ilə ölkə sərhədlərinin hüdudlarından kənarda da populyarlaşıb.

## Birinci xanım və Birinci vitse-prezident

Bütün ölkələrdə dövlət başçılarının həyat yoldaşları birinci xanım adlandırılır. Amma onların bir çoxu kölgədə qalmağı, sakit həyat sürməyi üstün tutur, ölkənin problemlərindən uzaq durmağa çalışır. Yaxud bəziləri yalnız xarici səfərlər zamanı gözə dəyir, cəmiyyət arasına nadir hallarda çıxırlar.

Azərbaycanda birinci xanım institutu faktiki olaraq İlham Əliyev Prezident seçildikdən sonra formalaşıb. Dövlət başçısının xanımı Mehriban Əliyeva 15 ildir ki, ölkənin ictimai-siyasi həyatında fəal iştirak edir, çiynini sosial problemlərin yükü altına verir, bir çox böyükmiqyaslı tədbirlərin təşkilatçılığını cəsarətlə üzərinə götürür. Biz onu hadisələrin mərkəzində, insanların arasında görməyə adət etmişik. Sanki belə də olmalıymış. Mehriban Əliyevanın birinci xanım missiyasına yanaşması zərurət, yaxud görüntü naminə deyil, təbiətindən və xarakterindən doğan bir yanaşmadır. O, həyatının mənasını Vətənə, xalqa və insanlara xidmətdə görür. Sərhəd tanımayan humanistlik, xeyirxahlıq, insanpərvərlik Azərbaycanın birinci xanımını fərqləndirən əsas keyfiyyət və ayrıca söhbət mövzusudur.

Birinci xanım olmaq bəxtəvərlikdir, yoxsa daşınması heç də asan olmayan yük? Mehriban xanımın fikrincə, bu, çox məsuliyyətli yükdür və o, birinci xanım olmasını, ilk növbədə, insanların bu və ya digər probleminin həlli üçün obyektiv fürsət kimi dəyərləndirir.

Təsadüfi deyildi ki, Mehriban Əliyevanın Birinci vitse-prezident təyin olunması cəmiyyətdə məntiqi qərar kimi qarşılandı. Bundan bir neçə gün sonra "Rossiya 1" telekanalının "Vesti nedeli" proqramına müsahibəsində yeni təyinatın üzərinə qoyduğu böyük məsuliyyət barədə danışarkən deyirdi: "Mən Prezidentin etimadını, ən başlıcası isə mənə inanan, ümid bəsləyən insanların etimadını doğrultmalıyam". İnanırdı ki, bu məsul vəzifənin öhdəsindən gələ biləcək.

Həmin vaxtdan təxminən ilyarım keçir. O vaxt qeyd etdiyi kimi, əsas diqqətini sosial problemlərin, əhalinin aztəminatlı təbəqələrinin problemlərinin həlli üzərində cəmləşdirib. Xatırlayın, Birinci vitse-prezident kimi, ilk müşavirəni Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr etdi. Müvafiq qurumlar qarşısında məsələni belə qoydu ki, bu sahədə işlər iki istiqamətdə qurulmalıdır: yeni mənzillər, yeni binalar tikilməli və inşa olunan binalar keyfiyyət standartlarına tam cavab verməlidir. İlkin mərhələdə qarşıda duran əsas məqsəd dörd min köçkün ailəsini yeni mənzillə, həmçinin iş yerləri ilə təmin etməkdir.

Həmin müşavirədən dərhal sonra müvafiq tədbirlər planı hazırlandı və real işlər başlandı. Lökbatan qəsəbəsində məcburi köçkünlər üçün 1026 mənzildən ibarət müasir yaşayış kompleksinin təməli qoyuldu. Daha sonra qəzalı vəziyyətdə olan binalarda məskunlaşmış məcburi köçkün ailələrinin yeni mənzillərlə təmin olunması layihəsinin icrası çərçivəsində onlara Abşeron rayonunun Masazır və Mehdiabad qəsəbələrində yeni mənzillər verildi. İş adamlarının yardımı ilə 214 ailə yeni inşa olunmuş və tam təmirli mənzillərə köçürüldü. Çox keçmədən Masazır, Ramana qəsəbələrində və Xətai rayonunda tikilən yeni binalar istifadəyə verildi və beləliklə, daha 725 məcburi köçkün ailəsinin mənzil şəraiti yaxşılaşdırıldı. Bu, son müddətdə Birinci vitse-prezidentin rəhbərliyi və təşəbbüsü ilə görülən işlərin heç də tam siyahısı deyil.

Mehriban Əliyevanın parlamentin deputatı olduğu zaman və Heydər Əliyev Fonduna rəhbərlik etdiyi 14 ildə qazandığı təcrübə yeni vəzifənin öhdəsindən uğurla gəlməsinə çox kömək edir. Özünün də dediyi kimi, çünki bu, seçicilərlə, insanlarla ünsiyyətin, problemlərin həllinə necə nail olmağın, hər hansı bir problemin həlli yollarının tapılmasının böyük təcrübəsidir.

Digər mühüm bir məqam isə UNESCO və ISESCO-nun xoşməramlı səfiri olaraq topladığı təcrübədir.

## UNESCO və ISESCO-nun xoşməramlı səfiri

Mehriban Əliyeva BMT-nin humanitar sahə üzrə ixtisaslaşmış təşkilatının - UNESCO-nun xoşməramlı səfiri seçilən ilk azərbaycanlı qadındır. O, bu ada Azərbaycan şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki davamlı səylərinə, dünya mədəniyyətlərinin mübadiləsi istiqamətində xidmətlərinə, həmçinin UNESCO-nun ideyalarına sadiqliyinə görə layiq görülüb. 2004-cü il avqustun 13-dən etibarən onun xoşməramlı səfir kimi məhsuldar fəaliyyəti nəticəsində Azərbaycan-UNESCO əməkdaşlığında yeni dövr başlayıb.

Azərbaycanı dünyada, beynəlxalq aləmdə sidq-ürəkdən təbliğ edən, siyasəti mərhəmət və şəfqətlə çulğaşdıran, hər bir sahədə xoş məramı ilə fərqlənən Mehriban xanımın fəaliyyəti mənsub olduğu xalqa sevgidən qaynaqlanır. O, ilk növbədə, Vətəninə xidmət edir, onun tərəqqisinə çalışır, gələcəyini düşünür. 2004-cü ilin mayından ulu öndər Heydər Əliyevin adını daşıyan Fonda rəhbərlik edən Mehriban Əliyevanın təşəbbüsü və dəstəyi ilə həyata keçirilən irimiqyaslı layihələr milli-mənəvi ideallara, humanist, insanpərvər dəyərlərə sadiq gənc nəslin formalaşdırılmasına, sivilizasiyalararası dialoqun təşviqinə, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasına istiqamətlənib.

Mehriban Əliyevanın fəaliyyəti yalnız milli-mənəvi dəyərlərin, Azərbaycanın mənəvi və qeyri-maddi irsinin dünya miqyasında təbliğinə deyil, eyni zamanda, sivil dünyada sülh, sabitlik, sivilizasiyalararası dialoq, multikulturalizm kimi bəşəri ideyaların reallaşdırılmasına, bu sahələrdə səylərin birləşdirilməsinə yönəlib.

"Sizi xoşməramlı səfirlər sırasında görmək bizim üçün - UNESCO üçün şərəfdir. Sizin nailiyyətlərinizin miqyasını bir adla əhatə etmək çətindir. Siz UNESCO-nun humanist dəyərlərinin əsl bayraqdarısınız", - Mehriban Əliyevaya ünvanlanmış bu sözləri təşkilatın sabiq baş direktoru İrina Bokova deyib. Doğrudan da, Azərbaycanın birinci xanımının ölkəmizin UNESCO ilə münasibətlərinin inkişafında və möhkəmləndirilməsində müstəsna xidmətləri var. Onun təşəbbüsü və dəstəyi ilə UNESCO və Azərbaycan arasında elm, təhsil, mədəniyyət sahələrində əməkdaşlığın genişləndirilməsi üçün Bakıda bir sıra beynəlxalq tədbirlər keçirilib. Xoşməramlı səfir kimi xeyriyyəçilik fəaliyyəti çox keçmədən Azərbaycan sərhədlərini aşaraq, bir çox xarici ölkələri də əhatə edib. Təsadüfi deyil ki, bu humanistlik və həyata keçirilən qlobal layihələr təkcə Azərbaycan xalqı tərəfindən deyil, bütün dünya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir.

Azərbaycanın görkəmli şəxsiyyətlərinin və əlamətdar hadisələrin yubileylərinin UNESCO çərçivəsində qeyd edilməsi də bu qurumla əlaqələrin yüksək səviyyəsindən xəbər verir. Füzulinin 500 illik, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik, "Leyli və Məcnun" operasının ilk tamaşasının, dünya şöhrətli alim, akademik Yusif Məmmədəliyevin, görkəmli yazıçı və ədəbiyyatşünas Mir Cəlal Paşayevin 100 illik yubileyləri, habelə bu qəbildən olan digər tədbirlər UNESCO çərçivəsində böyük təntənə ilə qeyd edilib. Mehriban Əliyevanın UNESCO-nun xoşməramlı səfirlərinin toplantılarında, qurumun mötəbər tədbirlərində iştirakı, keçirdiyi görüşlər, dünyada təhsilin vəziyyəti və digər aktual mövzularda çıxışları böyük maraqla qarşılanır.

***Ardı Səh. 11***

# Mehriban Əliyeva: birinci xanım olmağın məsuliyyəti və sərhəd tanımayan xeyirxahlıq

Əvvəli Səh. 10



Onun aramsız səyləri və nüfuzu sayəsində Qobustan Dövlət Tarixi-Bədii Qoruğu, İçərişəhər, Qız qalası, Şirvanşahlar Sarayı Kompleksi UNESCO-nun Dünya İrsi Siyahısına, Azərbaycan muğamı, aşıq, xalçaçılıq, tar ifaçılığı və hazırlanması sənətləri, Novruz bayramı, dolma, lavaş və kəlağayı, Lahıc misgərlik sənəti UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına, çövkən oyunu isə UNESCO-nun təcili qorunmağa ehtiyacı olan Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilib.

Yeri gəlmişkən, Azərbaycanın birinci xanımının UNESCO-nun xoşməramlı səfirləri arasında çox böyük nüfuzu var. Qurumda daim nəcib təşəbbüsləri ilə seçilən Mehriban Əliyevanın fəaliyyəti yüksək qiymətləndirilir, onun gördüyü işləri xoşməramlı səfirlər üçün örnək hesab edirlər. 2010-cu ildə II Qəbələ Beynəlxalq Musiqi Festivalında iştirak edən UNESCO-nun sabiq baş direktoru İrina Bokova bəşəriyyətin maddi və qeyri-maddi mədəni irsinin populyarlaşmasındakı işinə sədaqətinə, mədəniyyətlərarası dialoqun inkişafı naminə göstərdiyi səylərə, mədəni müxtəlifliyin möhkəmləndirilməsinə sanballı töhfələrinə görə xoşməramlı səfir Mehriban Əliyevaya "Qızıl Motsart" medalını təqdim edib.

UNESCO-nun xoşməramlı səfiri seçiləndən iki il sonra Mehriban Əliyeva müxtəlif sahələrdə genişmiqyaslı fəaliyyəti, ehtiyacı olan uşaqlara qayğısı, təhsilə, həmçinin İslam aləmində görülən işlərə böyük dəstəyinə görə də diqqəti çəkib və 2006-cı il noyabrın 24-də 51 müsəlman dövlətinin təmsil olunduğu İslam Ölkələri Elm, Təhsil və Mədəniyyət Təşkilatının - ISESCO-nun da xoşməramlı səfiri adına layiq görülüb.

Xoşməramlı səfir olaraq gördüyü işlərdən danışan Mehriban Əliyeva deyir: "Təbii ki, UNESCO və ISESCO-nun xoşməramlı səfiri kimi, bütün bu illər ərzində mən öz beynəlxalq fəaliyyətimi nizamlamalı olurdum. İlk növbədə, bu, mənim üçün dünya ictimaiyyətinə Azərbaycanın tarixini, mədəni irsini, bunlara yanaşı, Azərbaycanın bugünkü siyasi və ictimai gerçəkliklərini çatdırmaq imkanı idi. Müasir Azərbaycanın nə demək olduğunu, onun əhəmiyyətini, siyasi mövqeyini, bu ölkənin potensialını dünya ictimaiyyətinə çatdırmaq lazım idi. Düşünürəm ki, bu istiqamətdə də xeyli iş görməyə nail olmuşam. Buna görə də mən gələcəyə nikbin baxıram. Düşünürəm ki, bütün bu illər ərzində toplanan təcrübə, vərdişlər mənə kömək edəcək".

### Qəlbin səsi və hökmü ilə

Mehriban xanım ixtisasca həkimdir. Həyatı elə gətirib ki, artıq çoxdandır öz peşəsi ilə məşğul olmur. Amma fəaliyyətinin hər bir sahəsində, xüsusən Heydər Əliyev Fondunun prezidenti vəzifəsində həkimlik peşəsindən irəli gələn prinsipləri əsas götürür. Özünün dediyi kimi, həkimlik ruh və qəlblə bağlı olan peşədir, dərdə şərik olmaq və şəfqət elmidir. İnsanların halına yanmaq, ehtiyacı olanlara əl uzatmaq peşəsidir.

Biz Mehriban xanımın qəlbinin səsi və hökmü ilə hərəkət etməsinin, insanların dərdinə şərik çıxmasının, ehtiyacı olanlara kömək əli uzatmasının şəxsən şahidiyik. Heydər Əliyev Fondunun fəaliyyətində xeyriyyəçilik önəmli yer tutur. Talassemiyaya qarşı mübarizə üzrə Dövlət Proqramının qəbul edilməsi, bu xəstəliyə tutulmuş uşaqlar üçün ixtisaslaşdırılmış mərkəzin yaradılması və bu qəbildən olan daha neçə-neçə layihə məhz Mehriban Əliyevanın təşəbbüsüdür. Fonda bu və ya digər problemin həlli barədə çoxsaylı məktublar gəlir. Kimsə bəzən şəxsi xahişlə, kimsə səhhətindəki problemlə bağlı müraciət edir. Fond azacıq imkan olan yerdə heç kəsdən köməyini əsirgəmir. Fondun və onun rəhbərinin ümumxalq sevgisi və hörməti qazanmasının bir səbəbi də məhz budur. Milli Məclisin deputatı olduğu 14 ildə parlamentdəki işini xeyriyyəçilik fəaliyyəti ilə bilavasitə əlaqələndirib. Deyir ki, şəfqət təkcə gözəl söz deyil, əsl şəfqət real işlərin görülməsini, konkret addımların atılmasını tələb edir.

Humanizm prinsiplərinə daim sadiqlik nümayiş etdirən Mehriban Əliyevanın təşəbbüsü ilə dövlət başçısı tərəfindən neçə-neçə əfv fərmanı imzalanıb. Beləliklə, cinayət törətmiş minlərlə məhbus azad həyata qayıtmaq, ailələrinə, yaxınlarına qovuşmaq, cəmiyyətdə öz yerlərini tapmaq imkanı qazanıb.

### Mehriban Əliyeva stereotiplərə qarşı

Şərq aləmində uzun illər belə bir stereotip mövcud olub: siyasətlə məşğul olmaq kişi işidir. Mehriban Əliyeva çoxşaxəli fəaliyyəti, bir-birindən parlaq uğurları ilə bu stereotipi sındırır. O, ölkənin bütün ictimai-siyasi həyatında yaxından iştirak edir: üç çağırış Azərbaycan parlamentinin deputatı olub, sıralarında ölkənin 700 minə yaxın vətəndaşını birləşdirən ən böyük partiyanın - Yeni Azərbaycan Partiyasının sədr müavinidir. 14 ildən çoxdur ki, Heydər Əliyev Fonduna rəhbərlik edir. Onun rəhbərliyi və təşkilatçılığı ilə 2012-ci ildə Bakıda "Eurovision" beynəlxalq mahnı müsabiqəsi, 2015-ci ildə ilk Avropa Oyunları, ötən il isə IV İslam Həmrəyliyi Oyunları çox uğurla keçib, dünyaya səs salıb. Azərbaycanın idman ölkəsi kimi tanınmasında da Mehriban xanımın misilsiz xidmətləri var.

Bu gün Azərbaycan bəşəriyyəti düşündürən qlobal humanitar problemlərin müzakirə olunduğu mərkəzə çevrilib. Dünyada böyük maraqla qarşılanan beynəlxalq forumların yüksək təşkilatçılığından söz düşəndə Mehriban Əliyevanın adı ilk sırada çəkilir. 2016-cı ildə Azərbaycanın və AZƏRTAC-ın ev sahibliyi ilə keçirilən mötəbər beynəlxalq media forumları da bu qəbildəndir. Kollektivimiz Mehriban xanımın və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun bu tədbirlərin təşkilinə göstərdiyi dəstəyi daim minnətdarlıq hissi ilə xatırlayır. Dünya Xəbər Agentliklərinin V Konqresinin, Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatının XVI Baş Assambleyasının yüksək təşkilatçılıq səviyyəsinə görə dünya media tarixinə yazılması məhz bu dəstək sayəsində mümkün olub.

Mehriban Əliyeva digər bir stereotiplə - rəhbərin mütləq quru, vəzifə adamının sərt insan olması barədə formalaşmış fikirlə də razılaşmır. Hesab edir ki, bunlar heç də vacib keyfiyyət deyil. Müsahibələrindən birində bu barədə danışarkən belə deyib: "Düşünürəm ki, rəhbərin mütləq quru insan olması ideyası da müəyyən dərəcədə stereotipdir. Məsuliyyətli - bəli, prinsipial - bəli, iradəli - bəli. Quruluq, sərtlik vacib keyfiyyət deyil. Mənim üçün insanlarla işləmək bacarığı, sənin baxışlarını prinsipcə bölüşən, sənin ardınca getməyə hazır olan həmfikirlər komandası yaratmaq bacarığı daha vacibdir. Çünki onlar anlayırlar ki, sənin işlərin xeyirxahlığa yönəlib. Çox vacibdir ki, bəyan və elan edilənlər həqiqətən baş verənlərlə üst-üstə düşsün. Çünki insanlar hər şeyi görürlər, hər şeyi anlayırlar".

Birinci xanımın insanlıq barədə düşüncələri də yetərincə aydın və məntiqlidir. Deyir ki, insan üçün ən dəhşətlisi biganəlik və laqeydlikdir: "Fərqi yoxdur, ictimai xadimsən, yaxud dövlət xidmətində işləyirsən - insanlığı qorumaq lazımdır. Mənə elə gəlir ki, bu, heç vaxt səhv ola bilməz, əksinə bu, həmişə doğru yoldur".

### Analıq missiyası və ailə ocağının hərarəti

Birinci xanım, Birinci vitse-prezident, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun prezidenti... Üstəgəl analıq missiyası, ailə qayğıları.

Mehriban Əliyeva nəinki hər biri böyük məsuliyyət və vaxt tələb edən dövlət işlərinin, ictimai işlərin öhdəsindən bacarıqla gəlir, eyni zamanda, bir ana, evdar xanım olaraq həyatının bu hissəsinə yetərincə diqqət ayıra bilir. Yəni, məsələ heç də işin çoxluğunda, vəzifə yükünün ağırlığında deyil, düzgün tarazlıq və tənasüb tapmaqdadır. Daim bu tənasübü tapmağa çalışan Mehriban xanım deyir: "Hər bir qadın üçün onun ailəsi, onun uşaqları həyatının ən vacib, ən mühüm hissəsidir. Mən özüm üç uşaq anası olaraq analıq missiyasını həyatımın ən vacib missiyası kimi dəyərləndirirəm".

Gərgin iş qrafikinə və daşıdığı ictimai yükün ağırlığına baxmayaraq, Mehriban xanım qayğıkeş övlad, həyat yoldaşı və ana olaraq qalır. Müsahibələrinin birində qeyd edir ki, o, işdə də, evdə də prinsipcə eyni adamdır və dəyişməyə ehtiyac görmür. Dediyinə görə, xörək bişirməyi çox sevir. Milli xörəklərlə yanaşı, Avropa yeməkləri də bişirir. Onun üçün ən gözəl istirahət yeri, dincəldiyi məkan məhz evinin mətbəxidir.

Birinci xanımın ailə həyatına münasibətdə özünəməxsus baxışları və prinsipləri var. O, qətiyyən istəmir ki, ailəsinə göstərdiyi diqqət arxa plana keçsin: "Əlbəttə ki, mən, ilk növbədə, öz həyat yoldaşımın xanımıyam, uşaqlarımın anasıyam. Mənim beş nəvəm var və həyatımın bu sahəsinə göstərdiyim diqqətin ikinci plana keçməsini qətiyyən istəmirəm. Qətiyyən yox. İndiyədək mən buna nail olurdum. Ümid edirəm ki, gələcəkdə də buna nail olacağam".

Mahiyyət etibarilə lider qadın olan Mehriban Əliyevaya bənzərsiz bir tale qismət olub. Azərbaycanda hamının yaxşı tanıdığı bir ailədə doğulub, boya-başa çatan Mehriban xanım görkəmli yazıçı, ədəbiyyatşünas Mir Cəlal Paşayevin və "Bakı"-"Baku" qəzetlərinin yaradıcısı, istedadlı pedaqoq Nəsir İmanquliyevin nəvəsi, tanınmış alim Arif Paşayevin və Azərbaycanın ilk şərqşünas qadın alimlərindən biri Aida İmanquliyevanın qızı, xalqımızın ulu öndəri Heydər Əliyevin və oftalmoloq-alim Zərifə Əliyevanın gəlini, Prezident İlham Əliyevin həyat yoldaşıdır. Onun işə, vəzifə borcuna münasibəti, həyata və ailəyə baxışları, yüksək insani keyfiyyətləri mənsub olduğu ailədən və nəsildən, əhatəsindəki insanlardan qaynaqlanıb. O insanlardan ki, hər biri, ilk növbədə, Vətənini, xalqını düşünüb, bu yolda yorulmadan çalışıb. Mehriban Əliyeva da daim onu düşünür ki, öz ölkəsi üçün nə edə bilər. Buna görə də birinci xanım statusunun üzərinə qoyduğu yükü sadəcə zərurət xatirinə daşımır, hansı sahədə olursa-olsun, üzərinə düşən vəzifələri səmimi qəlbdən, düşünülmüş şəkildə yerinə yetirir.

Bütün bunlar adekvat reaksiya doğurur: insanlar birinci xanımı sevir və onu dəstəkləyirlər, ona inanırlar. Bu barədə danışan Mehriban Əliyeva deyir: "Mənim üçün ən vacibi budur ki, inam duyuram. Bax, bu, həqiqətən də mənə real inam, güc verən amildir".

***Aslan Aslanov***
***AZƏRTAC-ın İdarə Heyətinin sədri, Dünya Xəbər Agentlikləri Konqresinin və Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatının prezidenti***

# Jalə Əliyeva: "Azərbaycanın qazandığı bütün zəfərlərdə Mehriban xanımın xüsusi rolu, əməyi və payı var"

***İnsanlar həyatda təxminən üç qrupa bölünür: İnsanlar var ki, dünyaya səssiz-səmirsiz gəldikləri, xüsusi fəaliyyətləri ilə seçilmədikləri, yadda qalmadıqları kimi, gedişləri də eləcə səssiz-səmirsiz, iz-siz-tozsuz olur. İnsanlar var ki, gəlişləri də, gedişləri də dünyaya bir bəla, bir qara ləkədir, cəhənnəm əzabından başqa bir şey deyil. Sanki dünyanı qana çalxalamaqdan həzz alırlar. Amma insanlar da var ki, İnsanlıq adına şərəf, hörmət, gətirirlər.***

Onların Yer üzünə, dünyaya gəlişləri sanki Tanrının İnsana, İnsanlığa, bəşəriyyətin təhlükəsizliyinə, əmin-amanlığına, tərəqqisinə, çiçəklənməsinə bir lütfüdür. Böyük Yaradan onları məhz elə bir vaxtda, elə bir çalxantılı məqamda Yer üzünə göndərir ki, onların varlığına, mövcudluğuna böyük ehtiyac duyulur... Kürreyi-ərz, bəşəriyyət, məhz beləlărinə, İnsanlıq adına şərəf gətirənlərə təşnə olur... Tarixən belə insanlar çox olub. Yəqin ki, Dünya və İnsanlıq var olduqca, yaşadıqca, bu missiyanın daşıyıcıları olan İnsanlar da var olacaqlar... Belə İnsanlardan - dünyaya gəlişi, atdığı addımlar, misilsiz fəaliyyətləri, danılmaz xidmətləri ilə İnsanlıq adına hörmət, şərəf gətitən, İnsanlığı İnsan gözündə Göylərə ucaldan ŞEÇİLMİŞLƏRDƏN, könüllərdə TAXT qurmuş, qəlblərdə HEYKƏL ucaltmış Şəxsiyyətlərdən biri də Mehriban xanım Əliyevadır! Bəli, bəli, Mehriban xanım Əliyeva... Keçmiş deputat həmkarımız (əslində isə o hər zaman MİLLƏTinin Vəkillərindən biri olaraq qalacaq, o, bu statusu 12 illik titanik deputatlıq fəaliyyəti ilə əbədi olaraq qazanıb), Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESCO-nun xoşməramlı səfiri, ölkənin BİRİNCİ XANIMI və BİRİNCİ VİTSE-PREZİDENTİ Mehriban xanım Əliyeva! 1993-cü ilin məlum iyun hadisələrindən və Azərbaycan xalqının təkidli tələblərindən sonra ikinci dəfə hakimiyyət başına gələn və bu gəlişi ilə Azərbaycanı növbəti dəfə sıxıntılardan, çətinliklərdən, od-dan-alovdan qurtaran BÖYÜK XİLASKAR Heydər Əliyevin ikinci iqtidarı dövründən, xüsusilə də, 2000-ci illərin əvvəllərindən başlanan BÖYÜK YOL, MÜQƏDDƏS MİSSİYA inamla, öz hədəfləri doğrultusunda uğurla davam etməkdədir... Bu yol Mehriban Əliyeva yolu, bu missiya Mehriban Əliyeva missiyasıdır...İşıqlı bir yol, şərəfli bir missiya...Bu illər ərzində Azərbaycanda elə bir sahə, elə bir proses olmayıb və qalmayıb ki, orada Mehriban xanımın izi, əməyi, xidməti, zəhməti olmasın. Azərbaycanın qazandığı bütün zəfərlərdə, imza atdığı bütün uğurlarda Mehriban xanımın xüsusi rolu, əməyi və payı var...O, hər bir sahəyə, hər bir prosesə, Azərbaycan naminə görülən hər bir işə öz töhfəsini verib və verməkdədir. Mehriban xanım haqqında çox yazılıb, çox deyilib. Onun haqqında nəinki saatlarla, günlərlə, həftə, həftələrlə, aylarla danışmaq, yazmaq olar. Düşünürük ki, yenə də kifayət etməz, kəlmələr yetməz...Əslində Mehriban xanımın bütün bunlara, xüsusi tərifə, geniş təqdimata heç ehtiyacı da yoxdur. Məsəl var ki, deyirlər görünən dağa nə bələdçi?! Amma və lakin...Bizlərin, Azərbaycan cəmiyyətinin, gələn hər yeni nəslin Onu yaxından və dərindən tanımasına ehtiyac var. Çünki bu, elə bir humanist fəaliyyət, elə bir işıqlı yol, elə bir müqəddəs missiyadır ki, İnsanlıq bunu mütləq bilməli, öyrənməli, əxz etməli, mənimsəməli və sonda əməlində, fəaliyyətində tətbiq etməlidir... ...Elə götürək son bir illik fəaliyyətini...Ötən ilin əvvəllərində ölkə prezidenti cənab İlham Əliyev tərəfindən böyük etimada layiq görülən, Birinci vitse-prezident təyin edilən Mehriban xanım bir ildən bir qədər artıq müddətlik yeni fəaliyyəti dönəmində növbəti uğurlara imza atılıb. Birinci vitse-prezident təyin olunduqdan cəmi bir neçə gün sonra məhz Mehriban xanımın təşəbbüsü və iştirakı ilə Bakının Qaradağ rayonunun Lökbatan qəsəbəsində Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində öz doğma yurd yerlərindən, ata-baba ocaqlarından didərgin düşənlərin, eyni zamanda, Qarabağ müharibəsində iştirak etmiş, yaralanmış, əlil olmuş və Şəhidlik zirvəsinə ucalmış Vətən fədailərinin və onların ailə üzvlərinin - minlərlə insanın mənzil şəraitinin yaxşılaşdırılması üçün yeni şəhərciyin təməlatma mərasimi düzənləndi. Və tam bir il sonra əməli fəaliyyətin nəticəsi...Həmin şəhərciyin təntənəli açılış mərasimi.. .Mehriban Əliyeva daim QOŞA QANAD kimi birgə addımladığı həyat yoldaşı-ölkə prezidenti cənab İlham Əliyevlə həmin şəhərciyin açılışında iştirak etdi...Bu insanların sevincinə sevinc qatmaqdan, onları həyatın minbir əzab-əziyyətindən qurtarmaq, onlara yaşamaq eşqi bəxş etməkdən böyük nə ola bilər ki?! Bax, Mehriban xanım İnsanlığın belə bir Humanizm daşıyıcısı, mərhəmət nümunəsidir! ...Yaxud başqa bir misal, başqa bir ibrətamiz nümunə... Atalarımızın daha bir yaxşı deyimi də var: əl tutmaq Əlidən qalıb...Yəni, bu, heç də sadəcə maddi dəstək anlamında deyilmiş bir məsəl deyil. Burada daha çox mənəvi dəstək, mənən arxa-dayaq durmaq nəzərdə tutulub. Eyni zamanda, bu deyim əlbəttə ki, maddi dəstək anlamını da özündə ehtiva edir... Kimsəsiz, köməksiz, yardıma ehtiyacı olanlara kömək etmək, onları sevindirmək... Bu missiya Mehriban xanımın fəaliyyətinin ən başlıca prioritetlərindən biri olub və olmaqdadır. Bu yerdə xatırladım ki, hələ də əsrlərdən üzə bəri davam edən növbəti Müqəddəs Qurban bayramının təsiri, xoş duyğuları altındayıq... Bu bayram paylaşma, yardımlaşma, əl tutma, könül sevindirmə bayramıdır...Mehriban xanım hər il olduğu kimi, bu il də yardıma, köməyə, dəstəyə ehtiyacı olan insanları bir daha sevindirdi. Rəhbərlik etdiyi Heydər Əliyev Fondu vasitəsi ilə yüzlərlə insana mənəvi-maddi dayaq oldu, onlara Qurban əti, bayram sovqatı paylatdırdı. Yenə də bir el məsəli yada düşür: sağ əlin verdiyini sol əl bilməsin gərək. Mehriban xanım da bu yardımını sakitcə, televiziya kameralarından kənar, jurnalist qələmindən uzaq bir şəkildə etdi. Bax Mehriban Əliyeva İnsanlığın belə bir təvazökarlıq daşıyıcısı, şərəf nümunəsidir! ...Mehriban xanım hər il olduğu kimi, son bir il ərzində də ölkə prezidenti ilə birgə paytaxt Bakıda, eləcə də son illər siması büsbütün dəyişən, gözəlləşən Azərbaycanın müxtəlif bölgələrində səfərlərdə, açılışlarda oldu, öz xeyir-duasını verdi...Həmçinin, Azərbaycanda keçirilən, ölkəmizin növbəti dəfə uğurlu şəkildə ev sahibliyi etdiyi tədbirlərdə, beynəlxalq toplantılarda, idman yarışlarının açılış, mükafatlandırma, bağlanış mərasimlərin iştirak etdi. Bunlardan birinə misal kimi artıq son bir neçə ildə ölkəmizdə keçirilən və bütün dünyaya öz möhtəşəmliyi ilə səs salan Formula 1 yarışlarını göstərmək olar. Cəmi bir neçə ay öncə Azərbaycan, doğma Bakımız növbəti dəfə Formula 1 yarışlarına ehtişamlı şəkildə ev sahibliyi etdi. Həmin yarışın açılış, mükafatlandırma və bağlanış mərasimlərində dövlətimizin başçısı ilə yanaşı, Azərbaycan idmanının (əslində isə sağlam ruhlu, sağlam düşüncəli, sağlam bədənli Azərbaycan cəmiyyətinin formalaşmasının) böyük himayədarı olan Mehriban xanım Əliyeva da iştirak etdi, yarışın qaliblərinə mükafatları öz əlindən təqdim etdi. Bax Mehriban xanım İnsanlığın belə bir sadəlik daşıyıcısı və səmimilik nümunəsidir! ...Daha bir misal...Bu günlərdə, 20 iyul tarixində ölkəmizdə MDB ölkələri daxili işlər nazirləri şurasının növbəti-5-ci toplantısı keçirildi.Yüksək səviyyəli toplantıda iştirak etmək üçün ölkəmizə gəlmiş rəsmi şəxsləri qarşılayan və qəbul edənlər arasında Mehriban xanım da vardı...O, iclasdan öncə nümayəndə heyətinin bir qrup üzvünü qəbul edərkən söhbəti, müzakirəni yenə də Azərbaycanın ən ağrılı məsələsi olan Ermənistan-Azərbaycan münaqişəsinə, işğal olunmuş ərazilərdən terrorçuluğun və narkotik vasitələrin yayılması üçün istifadə cəhdlərinə, onların yolverilməzliyinə yönəltdi... Ümumiyyətlə, Qarabağ məsələsi, Ermənistanın təcavüzü, işğal faktı, üzləşdiyimiz faciələr, törədilən soyqırmı aktları, onların olduğu kimi dünyaya, bəşəriyyətə çatdırılması, həqiqətin, reallıqların qəbul və etiraf etdirilməsi deyərdim ki, Mehriban xanımın və onun illərdir rəhbəri olduğu Heydər Əliyev Fondunun fəaliyyət istiqmətinin bir nömrəli hədəfi və ən başlıca ana xəttdir. Bu istiqamətdə görülən işlər, göstərilən xidmətlər, çəkilmiş zəhmətlər və təbii ki, onların məntiqi və əməli nəticəsi, bəhrəsi də ortadadır, gözlərimizin önündədir...Artıq dünya kimin kim olduğunu anlamaqda, işğalçı ilə işğala məruz qalanı fəqrləndirməkdə, ayırmaqdadır. Mehriban xanım adıçəkilən görüşdə də bir daha Ermənistanın Azərbaycan torpaqlarını hələ də işğal altında saxlamasına, münaqişənin həllinə bütün vasitələrlə əngəl törətməkdə davam etməsinə diqqəti cəlb etdi və münaqişənin həllinin, sülhə, təhlükəsizliyə təhdid olan bütün davranışların aradan qaldırılmasının vacibliyini bəyan etdi: "Sizin diqqətinizi Azərbaycanın Dağlıq Qarabağ bölgəsində bir sıra xarici şirkətlərin qanunsuz iqtisadi fəaliyyəti faktlarına yönəltmək istərdim. Hazırda Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz iqtisadi fəaliyyət həyata keçirən 177 xarici hüquqi şəxs aşkar edilib. Bununla yanaşı, 710 xarici vətəndaş işğal olunmuş ərazilərə gəlib. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, ölkəmizin ərazi bütövlüyünü bütün dünya tanıyıb. Buna görə də bu cür pozuntular, bu cür hərəkətlər Azərbaycan qanunvericiliyinin kobud şəkildə pozulması deməkdir. Bununla yanaşı, son illərdə bu ərazilərdə narkotiklərin becərilməsi və sonradan transferi üçün istifadə olunması faktları mövcuddur. Bu da sözsüz ki, böyük narahatlıq doğurur. İstər xarici şirkətlər tərəfindən, istərsə də ayrı-ayrı şəxslər tərəfindən bu cür hərəkətlər Azərbaycan qanunvericiliyinin kobud şəkildə pozulmasıdır və bizim dövlətimiz həmin hərəkətlərin dayandırılması və qarşısının alınması üçün bütün qanuni tədbirləri görür və gələcəkdə də görəcək. Əlbəttə, bu cəhətdən biz İnterpolun dəstəyinə çox bel bağlayırıq. Mən bir daha təcrübənizi bölüşdüyünüzə, bizim birgə işimizə dəstək verdiyinizə görə təşəkkür etmək istəyirəm və əminəm ki, gələcəkdə uğurlu əməkdaşlığımızı davam etdirəcəyik!" Bax, Mehriban Əliyeva İnsanlığın belə bir ləyaqət daşıyıcısı, cəsarət nümunəsidir!!! ...Sabah bu Alicənab, Humanist, Mehriban, Səmimi, Zərif və Gözəl xanımın növbəti doğum günü, onun dünyaya gəlişi günüdür... Bu əlamətdar gün münasibəti ilə Mehriban xanımı təbrik edir, ona yorulmaz, bitmək-tükənmək bilməyən ictimai-siyasi fəaliyyətində yeni parlaq zəfərlər, böyük nailiyyətlər, milyonlara nümunə olan gözəl ailəsində daim firavanlıq, xoşbəxtlik diləyirik. Arzu edirik ki, Mehriban xanım növbəti yaşını Azərbaycan dövlətinin dünyada dik, öz ayaqları üstündə möhkəm durması naminə gecə-gündüz bilmədən çalışan, fədakarlıq nümunəsi sərgiləyən möhtərəm prezident İlham Əliyev cənabları ilə birgə azad olunmuş yurd yerlərimizdə, üçrəngli bayrağımızın ucaldığı Qarabağ torpaqlarında qeyd etsin. Bizcə, bunu ən çox onlar Mehriban xanım və cənab Prezident İlham Əliyev haqq edirlər! Bu, Onların ilahi haqqıdır!!! Əzizimiz, dəyərlimiz, fəxrimiz Mehriban xanım! Sizi bir daha doğum gününüz münasibətilə təbrik edir, Sizə uzun ömür, can sağlığı diləyir, Azərbaycanımız var olduqca, Siz də var olun, əbədiyaşar olun, deyirik!



***Jalə Əliyeva,***
***Milli Məclisin Mədəniyyət***
***Komitəsinin sədr müavini***

## Polo üzrə Azərbaycan yığması İtaliyada keçiriləcək Avropa çempionatına yola düşür



***Beynəlxalq Polo Federasiyasının və İtaliyanın Atçılıq İdmanı Federasiyasının birgə təşkilatçılığı ilə sentyabrın 20-dən 30-dək İtaliyanın Siena şəhərində Avropa birinciliyi keçiriləcək. Turnirdə Avstriya, Almaniya, Fransa, Niderland, Slovakiya, İspaniya, İsveçrə, İrlandiya, İtaliya və Azərbaycan yığma komandaları iştirak edəcəklər.***

Polo üzrə Azərbaycan yığma komandası ilk dəfə iştirakçısı olacağı Avropa çempionatına hazırlıq üzrə təlim-məşq toplanışlarını yekunlaşdırıb. Almaniyanın Mühlen şəhərində keçirilən təlim-məşq toplanışlarında milli yığmamız peşəkar və təcrübəli klub komandaları ilə sparrinq qarşılaşmaları keçirib, idmançılarımız qitə birinciliyi ərəfəsində zəruri oyun təcrübəsi əldə ediblər. Hazırda Bakıda səfər öncəsi son məşqlərini keçirməkdə olan milli komandamızın Avropa çempionatında əsas hədəfi ən yüksək pillə uğrunda mübarizə aparmaqdır.

Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi, Azərbaycan Respublikası Atçılıq Federasiyasının (ARAF) prezidenti, general-polkovnik Elçin Quliyev Polo üzrə Azərbaycan yığma komandasının üzvləri ilə görüşüb. DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, görüşdə yığma komandanın Avropa birinciliyinə hazırlıq vəziyyəti müzakirə olunub.

General-polkovnik Elçin Quliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərdiyi ali diqqət və qayğı nəticəsində atçılıq idman növlərinin son illər böyük inkişaf yolu keçdiyini, xüsusən polo sahəsində önəmli nəticələrin əldə olunduğunu qeyd edib. 2015-ci ildə Bakıda keçirilmiş Arena Polo üzrə Avropa birinciliyində millimizin qələbəsinin Avropanın aparıcı polo komandalarını yığmamıza hörmətlə yanaşmağa və Azərbaycan idmançıları ilə görüşlərə ciddi hazırlaşmağa məcbur etdiyi vurğulanıb.

ARAF-ın baş katibi Bəhruz Nəbiyev milli komandanın üzvlərinin səfəri ilə əlaqədar təşkilati məsələlər barədə məlumat verib. Yığmanın məşqçisi Namiq Orucov komandanın qitə birinciliyinə hazırlığın vəziyyəti barədə məlumat verib. O, idmançılar üçün yaradılmış şəraitə, Almaniyada təşkil olunmuş təlim-məşq toplanışlarına görə minnətdarlığını bildirib. ARAF-ın prezidenti Elçin Quliyev yığma komandanın səfəri ilə əlaqədar zəruri tapşırıq və tövsiyələrini verib, idmançılara Avropa birinciliyi kimi mötəbər turnirdə Azərbaycan Respublikasının üçrəngli dövlət bayrağını ucaltmaq şərəfini yaşamağı arzu edib.

## "AzerTelecom" 10 illiyini qeyd edir

***Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayder şirkəti "AzerTelecom" MMC-nin fəaliyyətə başlamasından 10 il ötür. MMC-dən SİA-ya verilən məlumata görə, 2008-ci ildə fəaliyyətə başlamış magistral internet provayder şirkəti ötən 10 il ərzində Azərbaycanın inkişaf edən informasiya və kommunikasiya texnologiyaları sektorunun ayrılmaz bir hissəsinə çevrilərək korporativ sektorda qabaqcıl telekommunikasiya xidmətləri təqdim edib, ölkənin dayanıqlı və fasiləsiz internet rabitəsi xidməti ilə təminatında mühüm rol oynayıb.***

Son 10 ildə şirkətin fəaliyyətində mühüm nailiyyətlər əldə olunub. Belə ki, təsis olunduqdan sonra şirkətin dayanıqlı DWDM texnologiyasına əsaslanan magistral şəbəkəsi istismara hazır vəziyyətə gətirilib, beynəlxlaq magistral xətlər və mübadilə mərkəzlərinə qoşulma həyata keçirilib, ayrılmış kanal xidməti, mobil və stasionar telekommunikasiya şəbəkələrində informasiyanın daşınması, internetin topdan satışı, beynəlxalq tranzit kimi xidmətlərə start verilib. Daha sonrakı mərhələlərdə korporativ müştərilərə digər qabaqcıl telekommunikasiya xidmətləri təqdim edilib, Bakı və regionlarda şirkətin malik olduğu infrastruktur daha da genişlənib. Nəticədə, "AzerTelecom" ölkəmizin İKT sektorunda ən aparıcı şirkətlərdən birinə çevrilib.

"AzerTelecom" şirkətinin baş icraçı direktoru Fuad Allahverdiyevin bildirdiyinə əsasən, hazırda magistral internet provayder şirkəti ölkənin telekommunikasiya sektorunun inkişafına öz töhfəsini verməkdə davam edir. "AzerTelecom öz fəaliyyətində peşəkarlıq, müştəri məmnuniyyəti, innovativlik, qabaqcıl texnologiyaların tətbiqi, dinamik inkişaf və sosial məsuliyyət kimi prinsiplərdən çıxış edir. Biz cəmiyyətin və İKT sektorunun dayanıqlı inkişafı naminə müxtəlif layihələrin reallaşmasına, yüksək texnologiyaların, innovasiyaların tətbiqinə, eləcə də korporativ sosial məsuliyyət strategiyamıza uyğun olaraq cəmiyyətin təhsil şüurunun inkişaf etdirilməsi istiqamətində müxtəlif elm və təhsil yönümlü layihələrin icrasına mühüm diqqət yetiririk və bu istiqamətlərdə fəaliyyətimizi gələcəkdə də davam etdirəcəyik. "AzerTelecom" şirkətinin bundan sonrakı dönəmdə də fəaliyyətinin ölkəmiz üçün faydalı olacağına inanırıq"- deyə Fuad Allahverdiyev qeyd edib.

Qeyd edək ki, "AzerTelecom" MMC Azərbaycanın dinamik şəkildə inkişaf edən telekommunikasiya operatorudur. Şirkətin əsas səhmdarı Azərbaycanın ilk mobil operatoru "Bakcell" şirkətidir. "AzerTelecom" ölkənin bütün əsas region və şəhərlərini əhatə edən şaxələnmiş və dayanıqlı fiber-optik kabel şəbəkəsinə sahibdir. Bu şəbəkə Naxçıvan Muxtar Respublikasını da əhatə edir. "AzerTelecom" MMC-nin beynəlxalq şəbəkəsi isə dünya üzrə bütün əsas telekommunikasiya hablarına birləşir. Şirkət internetin topdan satışı, ayrılmış kanal xidməti, mobil və stasionar telekommunikasiya şəbəkələrində informasiyanın daşınması, beynəlxalq tranzit, SİP telefoniya, FTTx (fiber optik xətt xidməti), Data mərkəz xidmətləri, VSAT xidmətləri, Korporativ şəbəkə, Backbone xidmətləri, GSM üzərindən ayrılmış xətt, VPN (virtual şəxsi şəbəkə), VoİP xidməti, DDOS hücumundan müdafiə və digər xidmətlər təqdim edir.

## Azərbaycan Avropa üçün xüsusi əhəmiyyət kəsb edir

*Angela Merkelin Bakıda səsləndirdiyi fikirlər və müzakirələr onu göstərdi ki, Azərbaycan Cənubi Qafqazın aparıcı lider dövlətidir*

***Azərbaycana səfəri zamanı Almaniyanın Federal Kansleri Angela Merkel ölkəmizlə bağlı müsbət fikirlər söylədi, Azərbaycan- Almaniya münasibətlərinin dostluq əlaqələrə malik olduğunu bildirdi. Söhbət etdiyimiz müsahiblərimiz bu faktın Almaniyanın, ümumiyyətlə isə, Avropanın Qafqazda daha çox Azərbaycana önəm verdiyinin təsdiqi olduğunu etiraf etdilər.***

<u>Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Səadət Vəliyeva:</u> **"Angela Merkelin ölkəmizə səfəri ikitərəfli əlaqələrin daha da dərinləşdirilməsinə səbəb olacaq"**



- Almaniya kansleri Angela Merkelin ölkəmizə səfəri ikitərəfli əlaqələrin daha da dərinləşdirilməsinə səbəb olacaq. Almaniya dünyanın dördüncü, Avropa qitəsinin isə ən güclü ölkələrindən biridir. Xüsusilə də, son dövr ərzində dünyada baş verən geosiyasi və geoiqtisadi proseslər Almaniya kimi dövlətlər üçün müxtəlif regionlar üzrə əməkdaşlıq və tərəfdaşlıq əlaqələrini genişləndirmək, dərinləşdirmək istəklərini reallaşdırmaq imkanları formalaşdırır. Əlbəttə ki, xanım Merkelin Azərbaycana səfəri də, bu baxımdan, istisna təşkil etmir. Son 15 il ərzində Azərbaycan iqtisadiyyatı 3 dəfədən çox artıb, ölkəmizə 250 milyard dollar sərmayə qoyulub. Davos Ümumdünya İqtisadi Forumu da Azərbaycan iqtisadiyyatını rəqabət qabiliyyətliliyinə görə dünyada 35-ci yerə layiq görüb. Artıq bu gün Azərbaycan Cənubi Qafqaz regionunun maliyyə və iqtisadi kütləsinin 75 faizini özündə cəmləşdirir. Ölkəmiz Avropanın enerji təhlükəsizliyinə xüsusi töhfələr verməkdə davam edir. Hətta Azərbaycanın malik olduğu tranzit-kommunikasiya infrastrukturu perspektiv karbohidrogen layihələrin reallaşdırılması üçün də əlverişli şərait yaradır. Eyni zamanda, Azərbaycanın Avropa İttifaqına daxil olan dövlətlərin bir çoxu ilə ikitərəfli tərəfdaşlıq və strateji əməkdaşlıq münasibətləri də mövcuddur. Avropa İttifaqı ilə ticarət dövriyyəsinin həcminin ümumi ticarətdəki payı 50 faizdir. Bu mənada, Azərbaycan iqtisadiyyatına investisiya yatıran xarici ölkələr arasında Avropa İttifaqı ölkələri üstünlük təşkil edir. 2017-ci ildə Avropa İttifaqının Azərbaycanın xarici ticarətindəki payı 42 faiz olub və 9,4 mlrd. dollar təşkil edib. 2018-ci ilin ilk 4 ayında isə bu göstərici 15 faiz təşkil edib və 3,7 mlrd. dollar olub. Müstəqillik dövründə Avropa İttifaqından Azərbaycan iqtisadiyyatına 25 milyard dollara yaxın investisiya yatırılıb. Azərbaycanda Avropa İttifaqı ölkələrinin 1500-dən çox şirkəti fəaliyyət göstərir. Elə Azərbaycanın Almaniyanın Cənubi Qafqazda əsas ticarət tərəfdaşı olması faktı da bu göstəricilərə əlavə edilir. Məhz bu və digər səbəblər Almaniyanın Azərbaycanla əlaqələrini daha da inkişaf etdirmək, dərinləşdirmək planlarının reallaşdırılmasına şərait yaradır.

Prezident İlham Əliyevin və xanım Angela Merkelin iş adamları ilə görüşü zamanı Almaniya Kanslerinin Azərbaycanın geostrateji ərazidə yerləşməsi, İran və Rusiya ilə sərhədlərə malik olması, Türkiyə ilə sıx münasibətlərinin mövcudluğu barədə danışması, eyni zamanda, ölkəmizin Avropanın enerji təminatının şaxələndirilməsində Avropa İttifaqı üçün mühüm bir ölkə olmasını, Azərbaycanın çox sürətli inkişafa nail olduğunu və bunun Almaniya ilə yaxşı partnyorluq üçün əsas yaratdığını qeyd etməsi bir daha rəsmi Berlinin Bakı ilə sıx əməkdaşlığa verdiyi önəmi üzə çıxarır.

<u>Millət vəkili Şahin İsmayılov:</u> **"Azərbaycan Cənubi Qafqazın aparıcı lider dövlətidir "**



- Təbii ki, dünyada həm iqtisadi, həm də siyasi nüfuzuna görə fərqlənən bir ölkənin siyasi rəhbərinin ölkəmizə səfəri, bütövlükdə, çox böyük bir hadisə idi. Səfər dünya mediasının da əsas hadisələrindən birinə çevrilmişdir. Angela Merkelin Azərbaycana səfəri zamanı ölkə Prezidenti İlham Əliyevlə görüş keçirildi və danışıqlar, söhbətlər aparıldı. Bütövlükdə, Angela Merkelin Bakıda səsləndirdiyi fikirlər və müzakirələr onu göstərdi ki, Azərbaycan Cənubi Qafqazın aparıcı lider dövlətidir və Azərbaycan Almaniyanın bu regionda ən böyük iqtisadi tərəfdaşıdır. Bəzi insanlar fikirləşirdilər ki, nümayəndə heyətinin tərkibində olan deputatlardan birinin, icazəsiz olaraq işğal altında olan Azərbaycan ərazilərinə səfər etməsi və buna görə, onun bizim ölkənin ərazisinə buraxılmaması Angela Merkelin səfərinə müəyyən formada təsir göstərəcək və guya burada onun səfərinin təxirə salınması məsələləri də var idi. Bununla bağlı Angela Merkel, məhz Ermənistanda jurnalistin sualına cavab verdi ki, "bizim Azərbaycana səfərimiz bu məsələdən daha vacibdir". Burada Azərbaycan özünü həm bərabər hüquqlu bir dövlət kimi göstərdi, həm beynəlxalq hüququn normalarına uyğun davrandı, həm də göstərdi ki, artıq Azərbaycan dünya siyasətində oturuşmuş xarici və daxili siyasət həyata keçirən bir ölkədir. Səfər zamanı Cənab Prezidentlə olduqca vacib məsələlər haqqında geniş müzakirələr oldu. Həm iqtisadi, həm də siyasi sahədə müəyyən danışıqlar həyata keçirildi. Düşünürəm ki, bundan sonra da Azərbaycan-Almaniya əlaqələri daha da inkişaf edəcək. Bu fakt təsdiq edir ki, artıq Azərbaycan, bütövlükdə, dünya siyasətinə və dünya iqtisadiyyatına, yaxşı mənada, təsir etmək qabiliyyətinə malik olan bir ölkəyə çevrilmişdir. Avropanın enerji təhlükəsizliyinin təminatında, artıq Azərbaycan mühüm rol oynayır. Biz təbii ehtiyatlarımızı dünya bazarına, xüsusilə, Avropa bazarına çıxarırıq və yaxın zamanlarda biz öz qaz xətlərimizi də işə salacağıq və Avropanın enerji təhlükəsizliyində bu, öz rolunu oynayacaqdır. Bundan başqa, çox mühüm strateji nəqliyyat dəhlizi Azərbaycan ərazisindən keçir. Böyük meqalayihələr icra olunur, bütövlükdə, ərazimizin kiçik olmasına baxmayaraq, müqayisədə Azərbaycan öz uğurlu siyasəti ilə öz ərazisini təkcə region üçün deyil, bütövlükdə, qitə üçün də əhəmiyyətli bir rola gətirib çıxara bilmişdir. Bu, Cənab Prezidentin adından olan bir məsələdir. Azərbaycanın dəstəyi olmadan, bu regionda hər hansı bir böyük layihə həyata keçirilə bilməz. Azərbaycan tam şəkildə öz qərarlarını verir və müstəqil xarici siyasət yeridir. Düşünürəm ki, yaxın gələcəkdə Azərbaycan öz strateji hədəflərinə doğru uğurla getdiyi kimi, yaxın gələcəkdə Dağlıq Qarabağ məsələsinin həllinə də nail olacaq.

**GÜLYANƏ**

SİYASİ RAKURS

# Alman jurnalistinin Brejnev nostalgiyası

*Yaxud Əfqanıstan hara, Azərbaycan hara?*

***Bir neçə gündür ki, ölkə mediasında Azərbaycan Prezidenti İlham Əliyevin və Almaniyanın Federal Kansleri Angela Merkelin birgə mətbuat konfransı zamanı alman jurnalistlərindən birinin verdiyi məlum sual - yəni alman jurnalistin Azərbaycanı Əfqanıstanla dəyişik salması məsələsi müzakirələrə səbəb olmaqdadır. Əslində, bu, Azərbaycanla bağlı ilk hal deyil və hələ SSRİ dönəmində baş katib Leonid Brejnev ölkəmizə səfər edərkən, onun "hörmətli əfqanlar" ifadəsi hazırda da gülüş hədəfində qalmaqdadır. Hətta həmin vaxtlar Brejnevin üzündən oxuduğu kağızları səhv saldığı da deyilirdi.***



Əslində, təxminən bənzər məsələnin yenə də Azərbaycanda təkrarlanması təsadüf kimi nəzərə alınmalıdır. Ancaq ortadakı fakt digər məsələlərin də təhlilinin aparılmasına zəmin yaratmış olur. Həmin sualı bir daha olduğu kimi xatırlayaq: "Bu yaxınlarda, müxalifət lideri İlqar Məmmədov azadlığa buraxılıb. Araşdırma aparan bir çox jurnalist, o cümlədən, Əfqan Muxtarlı həbsdə qalır. Buna görə, Avropa Şurası sizi tənqid edir. İndicə istinad etdiyiniz kimi, Almaniya və Avropa İttifaqı ilə bu cür sıx iqtisadi əməkdaşlıqla, siz Avropa Şurasında Əfqanıstan (???!!!-R.R.) kimi özünüz üzərinizə götürdüyünüz öhdəlikdən irəli gələrək, bir daha insan hüquqları standartlarına doğru addımları atmağa başlayacaqsınızmı?"

Beləliklə, almaniyalı KİV nümayəndəsi burada öz qeyri-peşəkarlığını ortaya qoyub, digər tərəfdən, onun bu sualının hələ Almaniyadakı qaranlıq dairə tərəfindən sifarişlə hazırlanması təəssüratı yaranır. Daha dəqiq desək, alman jurnalist, necə deyərlər, hazırlıqlı gəlib, ancaq özünü əməllibaşlı "zibilə" salıb. Hətta əminliklə deyə bilərik ki, o öz həmkarları tərəfindən məsxərəyə də qoyulmaqdadır. Çünki Azərbaycan kimi regionda və dünyada xüsusi siyasi çəkisi, iqtisadiyyatı güclü olan demokratik və hüquqi bir dövləti az qala yarandığı dövrdən indiyədək müharibələr içində çabalayan, xalqı səfalət içində yaşayan Əfqanıstanla dəyişik salmaq ya savadsızlığın pik həddi, ya hörmətsizlik, ya da açığını desək, axmaqlıqdır!

### Ona dünyanın aparıcı siyasilərindən biri olan xanım Merkeli səfər çərçivəsində media nümayəndəsi kimi müşayiət etmək şansı verilmişdi və bu şansı bir daha qazana bilməyəcəyini demək mümkündür

Başqa tərəfdən, öz ölkəsinin hökumət başçısının səfərini işıqlandıran bir jurnalistin bu qədər qaba yanlışlığını da nəzərə alarsaq, yəqin ki, həmin jurnalisti çalışdığı redaksiyada da tənbeh edəcəklər. Çünki ona dünyanın aparıcı siyasilərindən biri olan xanım Merkeli səfər çərçivəsində media nümayəndəsi kimi müşayiət etmək şansı verilmişdi və bu şansı bir daha qazana bilməyəcəyini demək mümkündür. Çox yəqin ki, şəxsi və çirkin maraqları onu ram etdi, gizli sifariş, maddiyyat həvəsi həmin jurnalistin öz işini də itirmək təhlükəsini də reallaşdıra bilər.

### Qazdıqları quyuya da özləri düşürlər

Bəli, məhz Azərbaycan Prezidenti növbəti dəfə öz yüksək mədəniyyətini nümayiş etdirərək, bu kimi kobud səhvi bəlli alman müxbirinin üzünə vurmadı. Öz ətraflı cavabı ilə Azərbaycanın demokratik dəyərlərə sadiq ölkə olduğunu, bütün azadlıqların, o cümlədən, söz və mətbuat azadlığının təmin edildiyini, fərqli baxışa görə heç kimin təqib olunmadığını, heç kimin cəzalandırılmadığını konkret faktlarla əsaslandırdı.

Beləliklə, fakt budur ki, ümumiyyətlə, bu tipli jurnalistlər, sadəcə, öz vəzifələrindən sui-istifadə edərək, suları bulandırmağa çalışırlar. Ancaq qazdıqları quyuya da özləri düşürlər. Bu fakt növbəti dəfə öz təsdiqini tapmış oldu.

**Rövşən RƏSULOV**

# Ermənistanda siyasi ziddiyyətlər və qarşıdurmalar

*Nikol Paşinyan siyasi tərəfdaş axtarışında*

***Ermənistanın baş naziri Nikol Paşinyanın yarıtmaz daxili və xarici siyasəti işğalçı ölkənin qarşısına daha ciddi geosiyasi, hərbi və iqtisadi problemlər çıxarmaqdadır. Erməni ekspertlərinin sözlərinə görə, Nikol Paşinyanın hakimiyyətə gəlişi zamanı verdiyi vədlərlə əməlləri arasında dərin uçurum yaranıb. Məsələn, korrupsiya ilə mübarizə, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli, siyasi opponentlərə qarşı qərəzli davranmama, Rusiya ilə əlaqələrə zərər verməmə və s. kimi sözlərə əməl edilmir. Əvəzində, Ermənistanın siyasi səhnəsində yerliçilik meyilləri daha da güclənir. Klanlar arasında mübarizə kəskinləşir. Siyasi mövqeyinə görə adamları həbsə atırlar. Bütün bunlar iqtisadi durumun daha da ağırlaşması və xarici siyasətdə fiaskoların artması ilə müşayiət olunur. Bu cür gedişat Ermənistanın siyasi mühitini hansı istiqamətlərə apara bilər?***



### İşğalçı ölkə problemlər burulğanında

Nikol Paşinyanın hakimiyyətə gəlməsi ilə Ermənistanda siyasi böhranı daha da dərinləşməyə başladı. Ekspertlər açıq etiraf edirlər ki, öncə, "erməni məxməri inqilabı" ifadəsini işlədənlər indi baş verən hadisələrin əsl mahiyyəti barədə baş sındırırlar. Onlar daha çox erməni siyasi mühitində meydana çıxan parçalanmanın məzmununu müəyyənləşdirməyə çalışırlar. Bir qayda olaraq, belə nəticə alınır ki, Ermənistanda yeni siyasi mərhələ başlayıb. Onun başlıca xüsusiyyəti ziddiyyətlərin kəskinləşməyə doğru getməsi və bunun fonunda elektoratın monolitliyinin birdəfəlik pozulmasından ibarətdir. Hazırda Ermənistan üçün elə bir məsələ yoxdur ki, cəmiyyət yekdil fikirdə olsun. Bir problemdən başqa - Dağlıq Qarabağ münaqişəsinin həllində rəsmi İrəvanın fəaliyyəti yarıtmazdır. Ermənistanın dövlət olaraq tənəzzülə uğraması və sonu görünməyən hakimiyyət uğrunda mübarizə isteriyası tamamilə fərqli psixoloji şərait yarada bilər. İndi siyasi səhnədə müşahidə edilən proseslərin analizi bu qənaətin doğruluğuna dəlalət edir. Maraqlıdır ki, N.Paşinyanın hakimiyyətə gəlişi ilə sürətlə erməni siyasi mühiti həm parçalandı, həm də ziddiyyətlərin sayı artdı.

### Nikol Paşinyan siyasi tərəfdaş axtarışında

Bu gün maraq doğuran məqam Nikol Paşinyanın ölkədə baş verən proseslərin daha da kəskinləşməsi və bu durumdan çıxış yolu tapa bilməməsidir. Məhz bu çətinlikdən çıxmaq üçün Paşinyan özünə siyasi tərəfdaş axtarmağa başlayıb. Bu isə, bir daha onu göstərir ki, görünür, N.Paşinyan öz hakimiyyətini saxlamaq və sərt addımlar atmaq üçün xalqın etimadını qazanmaq məsələsindən çəkinir və o, son anda cəmiyyətin bu kimi qeyri-populyar addımları dəstəkləyəcəyinə inanmır. Buna görə də, əlavə siyasi baza yaratmağa çalışır. Səbəb isə, N.Paşinyanın komandasının monolit olmamasıdır. Belə çıxır ki, N.Paşinyanın öz qrupu arasında qeyri-sağlam rəqabət mühiti yaranıb ki, bunun da hansı nəticələr verə biləcəyi bəlli deyil. Sözsüz ki, bütün bu amillər, bir daha onu sübut edir ki, artıq cəmiyyət N.Paşinyanın bu 3 aydan çox hakimiyyətdə olduğu dövrdə onun uğursuz daxili və xarici siyasətinin şahidi oldu. Və bir daha ona da əmin oldu ki, N.Paşinyan özünə təhlükə ola biləcək siyasi fiqurları zərərsizləşdirməyə çalışır. Onların sırasında keçmiş prezident Robert Koçaryanın həbs edilməsi, eyni zamanda, S.Sarkisyanın tərəfdarlarının həbsinin davam etməsi deyilənləri təsdiqləyən faktlardır.

N.Paşinyanın mövqeyini laxladan digər faktor xarici siyasətdə getdikcə daha çox hiss edilən qeyri-müəyyənlikdir. Belə ki, Moskva yeni hakimiyyətdən narazıdır. Bütün bunlardan aydın olur ki, Ermənistanın siyasi səhnəsi qarşıdurmalarla zəngindir. Belə proqnozlaşdırılır ki, seçkidən sonra bütün bu məqamlar daha kəskin şəkildə özünü göstərə bilər. Bu zaman N.Paşinyan öz hakimiyyətini legitimləşdirsə, koalisiya və prezidentlə münasibətləri balanslaşdırsa belə, o, çoxlu sayda güzəştlərə getməlidir. Belə olan halda, Paşinyan buna hazırdırmı? Beləliklə, yaranmış vəziyyət Ermənistanda ciddi problemlərin daha da dərinləşəcəyini göstərir.

Ekspertlərin sölərinə görə, küçə "demokratı" Paşinyan bu siyasi oyunları davam etdirərsə, bu, Ermənistan üçün heç bir uğur gətirməyəcək. Çünki bu gün Ermənistanda nə siyasi sabitlik, nə də iqtisadiyyatda müəyyən qaydalar var. Apardığı işğalçılıq siyasəti ilə Ermənistan özünü təcrid vəziyyətinə salıb.

İsveçdə yaşayan hüquq müdafiəçisi Vahe Avetyan da Ermənistan təhlükəsizlik xidmətinin həyata keçirdiyi korrupsiya şousunu da tənqid edərək, Nikol Paşinyana üzünü tutaraq, onu xalqı aldatmamağa çağırıb və soydaşlarını Ermənistanın indiki hakimiyyətinə də bel bağlamamağa çağırıb. Həmçinin, bildirib ki, Paşinyan nə qədər ki, absurd fikirləri ilə münaqişənin nizamlanması ilə bağlı danışıqları yubatmaq niyyəti güdürsə, Ermənistan iflas vəziyyətindən çıxa bilməyəcək. Belə vəziyyətdə olan Ermənistanla inkişaf etmiş Azərbaycanın danışıqlara getməsi bu ölkə üçün faciəli ola bilər. Ona görə də, Paşinyan vaxt udmaq istəyir. Amma başa düşməlidir ki, Ermənistanın gələcəyi işğal siyasətinə son qoyulmasından keçir. Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarını azad etməyincə, heç bir nəticəyə nail ola bilməyəcək.

**A.SƏMƏDOVA**



### "HRAPARAK": "Azərbaycana yaşıl işıq yandırılıb... Xaçaturov bu işdə maraqlı deyil"

Azərbaycanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) üzv olması mümkünlüyü Ermənistanın ciddi narahatlığına səbəb olub. SİA xəbər verir ki, bu barədə erməni qəzeti "Hraparak" öz mənbələrinə istinadən yazıb. "Bu yaxınlarda KTMT-də üzv sayının genişləndirilməsi məsələsi müzakirə olunub", deyə qeyd edən qəzet eyni zamanda, müşahidəçi statusunu müəyyən edən sənəd paketinin də təqdim edildiyini xatırladıb. "Bu, onu göstərir ki, yaxın gələcəkdə Azərbaycanın KTMT-yə üzvlüyü ciddi şəkildə müzakirə olunacaq", yazan erməni qəzeti Qarabağ məsələsi baxımından bu addımın təhlükə yaradacağını təlaşla qeyd edib.

Lakin digər məqam budur ki, adıçəkilən qəzet KTMT-nin hazırkı baş katibi Yuri Xaçaturovun fəaliyyətsizliyini qabardıb: "Əldə etdiyimiz məlumatlara görə, KTMT-nin baş katibi Yuri Xaçaturov bu məsələdə müəyyən rol alaraq, prosesin qarşısını kəsə bilərdi. Lakin bir tərəfdən onun KTMT-dəki mövqeyi zəifləyib, Ermənistanda ona qarşı cinayət işi qaldırılıb, digər tərəfdən isə, onda artıq çemodan əhval-ruhiyyəsi yaranıb və bu məsələdə xüsusi təşəbbüs göstərmək marağında deyil. Artıq belə demək mümkündür ki, Azərbaycanın KTMT-yə üzv olması üçün yaşıl işıq yandırılıb".

### Türkiyədə axtarışda olan daha bir təhlükəli terrorçu məhv edilib

Türkiyə təhlükəsizlik qüvvələri ölkənin Ağrı vilayətinin Doğubayazıt bölgəsində daha bir uğurlu antiterror əməliyyatı keçirib. Hərbi Hava Qüvvələrinin qırıcılarının dəqiq atəşi ilə iki təhlükəli terrorçu zərərsizləşdirilib. Onlardan biri "Tolhildan" ləqəbli Fecri Demirdir. AZƏRTAC xəbər verir ki, bir sıra ağır cinayətlərdə, o cümlədən terror aktlarının təşkilində və icrasında ittiham olunan Fecri Demir Türkiyə Daxili İşlər Nazirliyi tərəfindən təhlükəli terrorçu kimi axtarışda olub.



# İslam qadınların mülkiyyət hüququ haqqında

***İslamın ilk çağlarında qadınların hüququ, imtiyaz və mövqeyi o qədər yüksəlmişdi ki, bəzən islam hökuməti qadınlarla bağlı məsələlərə müdaxilə etməyə məcbur olurdu. Bütün sünni və şiə mənbələrinin təsdiq etdiyi belə bir tarixi hadisə diqqətəlayiqdir. Bir gün ikinci xəlifə Ömər minbərə çıxıb belə dedi: "Hər kəs 500 dirhəmdən artıq mehriyyə versə, onun artıq hissəsini müsadirə edib, beytul-mala qatacağam!"***

Orada iştirak edən qadınlardan biri Ömərə etiraz edib dedi: "Sizin bu əmriniz Allah hökmlərinin ziddinədir! Çünki Allah-Taala bela buyurur, "Nisa" surəsində göstərilir: "Onlardan (qadınlardan) birinə çoxlu mal vermiş olsanız da, heç bir şeyi geri almayın".

Ömər öz səhvini başa düşüb belə dedi: "Kişi səhv etdi, qadın isə həqiqəti dedi". Bu tarixi hadisə bir daha islamda qadının hansı yüksək mövqeyə malik olmasını sübut edir. Bir qadın xəlifə qarşısında etiraz edir və o da, cəmiyyətin hüzurunda öz səhvini etiraf edərək, Allah qanunlarına zidd olan göstərişini ləğv etməyə məcbur olur.

Bəli, islam qadınları əsarət və köləlikdən qurtarıb, onlara kişilərlə bərabər hüquqlar verən bir dindir. Bu bərabərlik riyazi bölgülər əsasında deyil, fitri və təbii xüsusiyyətlərə görədir. Bu, zatən və mahiyyətcə mütləq bərabərlik deyil. Yaşayış şəraitində vəzifə etibarilə qadınla kişinin bərabərliyi yalnız xəyal aləmində mümkündür.

İslam öz qanunvericiliyində bəşərin təbii və fitri ehtiyaclarını həmişə nəzərə alır. Bu səbəbdən də, qadınla kişinin təbii bərabərliyini təsdiq edir, mümkün olmayan şəraitdə isə məsələyə başqa meyarlarla yanaşır.

586-cı ildə Fransada dini şura qadınlar, haqqında belə bir qərar çıxarmışdı: "Qadınlar kişilərə xidmət etmək üçün yaradılmış bir növ insandır".

Son əsrə qədər Avropa ölkələrində qadınlar hətta mülkiyyətdən istifadə etmək hüququndan məhrum idilər. İngiltərədə 1850-ci ildə qəbul edilmiş qanuna görə, qadınlar ölkə vətəndaşları sayılmırdılar və heç bir mülkiyyət hüququna malik deyildilər. Hətta əyinlərindəki paltarları da onların mülkiyyəti hesab edilmirdi! Səkkizinci Henri isə qadınlara dini kitab oxumağı qadağan edən bir fərman vermişdi.

1882-ci ildə Britaniyada təsdiq edilmiş yeni bir qanuna görə qadınlar həmin dövr üçün misilsiz hüquq əldə edirdilər. Onlar qazandıqları pulu istədikləri kimi xərcləyə bilər və öz ərlərinə təhvil verməmək ixtiyarı qazanırdılar!

Amma islam dini 14 əsr bundan qabaq qadının xüsusi mülkiyyətə sahib olması və onun iqtisadi cəhətdən müstəqilliyini elan etmişdi. Qadın ticarətdən, hədiyyədən və sair yolla əldə etdiyi maliyyə vəsaitlərini, ərindən asılı olmayaraq, istədiyi kimi xərcləməkdə azad və müstəqildir. Həqiqətən, bu qanun islam dini üçün iftixar sayılır.

"Kişilərin öz qazandıqlarından öz payı, qadınların da öz qazandıqlarından öz payı vardır".

Mülkiyyətlə bağlı hüquqlardan əlavə, islam dini evlənmək məsələsində də qadına azadlıq və müstəqillik verir. İslam nöqteyi-nəzərindən qadının razılığı olmazsa, onu heç kim ərə getməyə məcbur edə bilməz. Ümumiyyətlə, qadınla əlaqədar elə bir məsələ yoxdur ki, islam qanunları onu ən yaxşı şəkildə həll etməmiş olsun.

Bəzi müsəlman ölkələrində islam qayda-qanunları deyil, qondarma və dinimizə zidd olan adətənənələr hökm sürür. Həmin ölkələrdə qadın hüquqlarının tapdalanmasında islam dini deyil, bu dövlətlərin və hökumətlərin özləri günahkardırlar. İqtisadi çətinliklər Şərq qadınlarının ağır vəziyyətə düşməsinə səbəb olan amillərdəndir. Belə ölkələrdə adamların bir hissəsi naz-nemət içində yaşayır, böyük bir hissəsi isə yoxsulluğa düçar olurlar. Bu şərait ailə mühitinə də təsir edir və ondan ən çox əziyyət çəkənlər isə qadınlar olurlar. Onlar öz şəri hüquqlarından istifadə edə bilmir və kişilərin öz hədlərini aşması adi hala çevrilir.

Aydındır ki, yoxsul cəmiyyətdə əxlaqi dəyərlər qiymətdən düşür, zor və ədalətsizlik bərqərar olur. Qadınların mövqeyini alçaldan səbəb, məhz həmin yoxsulluq və cəmiyyətin qeyri-islami qayda-qanunlarla yaşamasıdır.

İslam isə yoxsulluq və ədalətsizliklə mübarizə aparan bir dindir. O, sərvətin bütün adamlar arasında ədalətlə bölünməsini tövsiyə edir və qadınların hüquqlarının təmin olunması uğrunda mübarizə aparır.

Görəsən, "mədəni cəmiyyət" uğrunda mübarizə aparan müasir Qərb dünyasında qadın hansı məqam və dəyərə malikdir. Müasir dövrdə qadının mövqeyi, demək olar ki, tənəzzülə uğrayıb. Çünki bu dövrdə qadın kişinin heyvani ehtiraslarını doyurmaq üçün alətə çevrilib. Qadınlardan kütləvi informasiya vasitələrində, reklamlarda, restoran və ticarət mərkəzlərində təbliğat vasitəsi kimi istifadə edirlər. Amerikalı alimlərdən biri belə deyir: "Bu gün açıq sinəsini kişilərə göstərən bir qadın bir milyon, bir yumruq zərbəsi ilə adamı öldürə bilən kişi isə yarım milyon dollar pul qazanır. Amma öz elm və zəkası ilə milyonlarla insana xidmət yolunda saçını ağartmış bir alimin qazancı normal yaşayışı üçün kifayət etmir".

Professor Albert Kannolli öz məqaləsində belə bir həqiqəti açıqlayırdı:

"1919-cu ildə İngiltərə qadınları öz hüquqlarını əldə etmək üçün Parlamentlə mübarizə apardıqda, hətta ölüm və zindandan da qorxmurdular. Amma o zaman onların heç biri bilmirdi ki, gələcəkdə bu "hüquq azadlığı" qadınların ictimai vəziyyətini tam ayrı bir istiqamətdə dəyişib, onların bəzilərini pul qazanmaq üçün alətə çevirəcək. Əgər o vaxt mübarizə aparan qadınlar indi sağ olsaydılar, öz əvvəlki vəziyyətlərinin bərpa edilməsi üçün yenidən mübarizəyə başlayardılar".

İslam maddi çətinliklərin ailə qurmağa maneçilik törətməsinin əleyhinədir və sadə üsullarla evlənməyi təklif edir. İslam dini kasıbların məhrumiyyətlərinin üzərinə başqa çətinliklərin əlavə olunmasını istəmir.

"(Ey möminlər!) Aranızda olan subay kişiləri və ərsiz qadınları, əməlisaleh kölə və kənizlərimzi evləndirin. Əgər onlar yoxsuldurlarsa, Allah öz lütfü ilə onları dövlətli edər".

Təbiidir ki, hər bir şəxs öz yaşayışını təmin etmək üçün daim çalışır. Amma evləndikdən sonra ailə-məişət problemlərini həll etmək üçü daha artıq səy göstərir. Buna görə də, evlənmək həyat səhnəsində inkişaf amilinə çevrilə bilər. Qərb ölkələrində cinsi pozğunluqların artması və qadın-kişi münasibətlərindəki misilsiz açıqsaçıqlıq cavanların ailə qurmasına mane olan və tədricən nikahın əhəmiyyətini heçə endirən səbəblərdəndir.

Əyyaşlıq və cinsi azadlıq cavanlar arasında evlənməyə olan meyilləri kəskin surətdə azaldır.

Qərbdə nikahın sayının azalması və boşanmaların artması "mədəni cəmiyyət"lərdə ailə əsaslarının açıq-aşkar dağılma prosesinin sürətlənməsini göstərir.

Məşhur sosioloq Vill Dorant yazır: "Yeni cəmiyyətlərdə ailə təməli düzgün qoyulmur və əksər hallarda, o, cinsi əlaqə əsasında qurulur. Buna görə də, tez bir zamanda, öz möhkəmliyini itirir. Ər və arvad hər biri öz "şəxsi" həyatını yaşayır. Onlar arasında əvvəllər mövcud olan coşqun ehtiraslar soyuyur və əlaqələr zəifləyir. Bir-birlərini aldatmaq halları və ardıcıl xəyanətlər görünməyə başlayır.

Böyük şəhərlərdə ailə qurmaq məsələsi, demək olar ki, tənəzzül etməkdədir. Kişilərin öz həyat yoldaşlarından uzun müddət zövq ala bilmələri problemə çevrilib."

Müasir dövrdə cavanların evlənmələrinə mane olan amillərdən biri də, ailə qurmaq üçün nəzərdə tutulan xərclərin həddindən artıq ağır olmasıdır. Cavanların əksəriyyəti belə böyük maddi imkanlara malik deyildirlər və bu da, onların vaxtında ailə qurmalarının qarşısını alır. İslam dini evlənmə xərclərinin indiki qədər yüksək olmasının qəti əleyhinədir və izdivacın ən sadə şəkildə, yüngül xərclərlə həyata keçirilməsini tövsiyə edir.

İslam Peyğəmbəri (s.ə.v.v) belə buyurur: "Qadının qədəmlərinin düşərli və mübarək olması, onun istəklərinin asanlığında və mehriyyəsinin az olmasındadır".

Şübhə yoxdur ki, ailə ixtilafları zamanı qadının əlində "ağır mehriyyə" adlı təzyiq vasitəsi olsa, özünü daha sərt aparar və tərslik edər. Həmin tərslik də ailənin dağılması ilə nəticələnə bilər.

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

İslam qayda-qanunları deyil, qondarma və dinimizə zidd olan adət-ənənələr hökm sürür. Həmin ölkələrdə qadın hüquqlarının tapdalanmasında islam dini deyil, bu dövlətlərin və hökumətlərin özləri günahkardırlar. İqtisadi çətinliklər Şərq qadınlarının ağır vəziyyətə düşməsinə səbəb olan amillərdəndir. Belə ölkələrdə adamların bir hissəsi naz-nemət içində yaşayır, böyük bir hissəsi isə yoxsulluğa düçar olurlar. Bu şərait ailə mühitinə də təsir edir və ondan ən çox əziyyət çəkənlər isə qadınlar olurlar. Onlar öz şəri hüquqlarından istifadə edə bilmir və kişilərin öz hədlərini aşması adi hala çevrilir.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 28 avqust


## Dondurma artıq çəkidən əziyyət çəkənlərə ziyandır



Bəzən dondurmanı obrazlı şəkildə "buz bağlamış xoşbəxtlik" adlandırırlar. Hər il onun yeni növləri hazırlansa da, vanil ətirli dondurma uzun müddətdir ki, öz liderliyini qoruyub saxlayır. Şokoladlı dondurma ikinci, çiyələkli dondurma isə üçüncü yeri tutur.

AZƏRTAC xəbər verir ki, tibb işçiləri təbii üsullarla hazırlanmış dondurmaları hər zaman müsbət qiymətləndirirlər. Qəribə səslənsə də, anginanın ilk mərhələsində məhz dondurma yemək məsləhət görülür. Hətta burun qanaxması zamanı bir-iki qaşıq dondurma udmaqla qanaxmanı dərhal kəsmək olar. Dondurma da qara şokolad kimi əhvali-ruhiyyənin yüksəlməsi və sakit yuxuya müsbət təsir göstərir. Bununla belə mütəxəssislər dondurmanı hər kəsə tövsiyə etmirlər. Belə ki, 100 qram dondurmada 500 kalori var və bu da artıq çəkidən, şəkər xəstəliyindən əziyyət çəkənlərə ziyandır. Onun tez-tez və həddən artıq istifadəsi güclü başağrılarına səbəb olur. Dondurmanın həftədə yalnız ikiüç dəfə yeyilməsi məqbul hesab edilir.

## Fransa stasionar telefonlardan imtina edir

Fransanın telefon rabitəsi operatoru "Orange" bu il noyabrın 15-dən stasionar telefon rabitəsinə yeni abunəçilərin abunəliyinin dayandırılmasını rəsmən elan edib. Parisdə ilk telefon şəbəkəsinin yaradılmasından 139 il sonra Fransa kabel telefoniyası üçün stasionar rabitə xətlərinin istifadəsindən tədricən imtina olunur.

AZƏRTAC "cnews.ru" saytına istinadən xəbər verir ki, ənənəvi telefon rabitəsindən istifadə edən fransalı istifadəçilər tezliklə öz abunə xətlərini internet-telefoniya ilə əvəz etməli olacaqlar. İndiki stasionar telefonlardan internet-telefoniyasına keçid bir neçə il ərzində həyata keçiriləcək. Noyabrdan etibarən evdə telefon xətti qoşmaq istəyən "Orange" operatorunun bütün müştərilərinə internet-router vasitəsilə qoşulma təklif ediləcək. İnternet-telefoniyaya keçid prosesi 2023-cü ilədək tamamilə başa çatdırılacaq.

## İraqda içməli sudan azı 14 min nəfər zəhərlənib

İraqın cənubunda yerləşən Bəsrə şəhərində içməli suyun çirklənməsi səbəbindən zəhərlənənlərin sayı 14 min nəfərə çatıb. AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, bu barədə məlumat şəhər səhiyyə departamentinin bəyanatında yer alıb. Zəhərlənən 1600 nəfər xəstəxanalara ishal simptomları ilə çatdırılıb.

Qeyd edək ki, iyulun 8-də Bəsrədə elektrik və su təminatının yaxşılaşdırılması tələbi ilə etiraz aksiyaları başlayıb. Nümayişçilərin birinin ölümündən sonra liman şəhərində vəziyyət daha da gərginləşib. Sonradan aksiyalar Maysan, Kərbəla, Nəcəf, Di-Kar Babil və digər cənub şəhərlərinə yayılıb. İraq şiələrinin nüfuzlu alimi Əli əs-Sistani nümayişçiləri və onların tələblərini dəstəkləyib. Hökumət etirazçıların tələblərinin yerinə yetirilməsi üçün xüsusi komissiya yaradıb, içməli su borularının və elektrik xətlərinin bərpası üçün 2 milyard dinar (17 milyon dollar) ayıracağını vəd edib.

## ELAN

"Müstəqil Azərbaycan Xalq Mübariz Cümhuriyyəti" İctimai Birliyi 153 № ilə 14.03.1992-ci ildə qeydə alınmışdır. 1999-cu ilə kimi Rzayev Qasım Cabbar oğlu qanuni təmsilçisi olmuşdur. 1999-cu ilin axırı uzun sürən xəstəlikdən sonra vəfat etmişdir. Sonra mən Hüseynov Baba Baba oğlu həmin təşkilatda müavin olduğum üçün Ədliyyə Nazirliyinə ərizə ilə müraciət etdim ki, təşkilatın sənədləri yoxa çıxıbdır. Ədliyyə Nazirliyindən mənə möhür və ştamp almaq üçün sənədlər verildi. Yenidən möhür və ştamp alıb fəaliyyətə başladım, üzvləri çoxaltdım. Ədliyyə Nazirliyinə yenə ərizə ilə müraciət etdim. 22.07.2008-ci il tarixində mən Hüseynov Baba Baba oğlu Dövlət Qeydiyyatına alındım, hazırda təşkilatın qanuni təmsilçisiyəm.

## Neymar "Real"a keçməyə razılıq verib



Braziliya millisinin və Fransanın "PSG" klubunun hücumçusu Neymar "Real Madrid"ə keçməyə razılıq verib. AZƏRTAC İspaniyanın "Football Espana" nəşrinə istinadla xəbər verir ki, "Real Madrid"ın rəhbərliyi 26 yaşlı braziliyalı ilə müqavilənin şərtlərini razılaşdırıb. Futbolçunun Madrid klubuna keçidi 2019-cu ilin yayında nəzərdə tutulur. Transfer miqdarı futbol tarixində rekord məbləğə - 300 milyon avroya reallaşacaq. Madrid klubunun prezidenti Florentino Peres hesab edir ki, Kriştianu Ronaldonun "Yuventus" klubuna keçidindən sonra portuqalıyalını komandada əvəzləməyi bacaran bir hücumçu lazımdır. Neymar 2017-ci ildə İspaniyanın "Barselona" klubundan "PSG"-yə futbol tarixində rekord məbləğə (222 milyon avro) keçmişdi. Keçən mövsüm braziliyalı 30 oyunda 28 qol vurub və 16 məhsuldar ötürmə edib.

## Səkkiz yaşlı gimnast Mina Abbasovadan növbəti qızıl medal



Macarıstan Bədii Gimnastika Federasiyasının təşkilatçılığı ilə Budapeştdə XVII ənənəvi "Gracia" kuboku uğrunda yarışlar keçirilib. Yarışlarda ev sahibi Macarıstan ilə yanaşı, ABŞ, Kanada, Rusiya, Ukrayna, Azərbaycan, Lüksemburq, Xorvatiya, Slovakiya, Misir, Çexiya, Avstriya, İspaniya, İsrail, Rumıniya, İtaliya, Malayziya, Gürcüstan, Koreya Respublikası və Braziliyanın milli yığmaları da iştirak ediblər.

Əvvəlki turnirlərdə Macarıstan bayrağı altında çıxış edən 8 yaslı həmyerlimiz Mina Abbasova bu dəfə Azərbaycanı təmsil edib. Çoxnövçülük yarışlarında həmyaşıdlarını böyük xal fərqi ilə geridə qoyaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxmağı bacaran Mina Abbasova növbəti qızıl medalını Azərbaycan bayrağı altında qazanıb. İkinci pilləyə Ukrayna təmsilçisi, üçüncü yerə isə rusiyalı gimnast sahib olublar. 2010-cu ildə Bakıda anadan olan Mina Abbasova valideynlərinin işi ilə əlaqədar müvəqqəti Budapeştdə yaşayır. İştirak etdiyi bütün beynəlxalq yarışlarda parlaq çıxışları ilə fərqlənən balaca gimnast idman karyerasına beş yaşından başlayıb. O, qısa vaxtda bir çox beynəlxalq yarışlarda uğurla iştirak edib.

## PSJ "Barselona"nı FİFA-ya şikayət edir



"Barselona"nın PSJ-nin yarımmüdafiəçisi Adrien Rabyo ilə icazəsiz danışıq aparması fransız klubunun narazılığına səbəb olub. Qol.az-ın "Sport.es" nəşrinə istinadən yaydığı xəbərə görə, Paris təmsilçisi kataloniyalıları FİFA-ya şikayət etməyə hazırlaşır. "Barselona" isə iddia edir ki, klubun nümayəndələri Pep Sequra və Erik Abidal danışıqları PSJ-nin razılığı ilə aparıb. Qeyd edək ki, bir müddət öncə "Barsa"nın Fransa millisinin üzvü ilə anlaşdığı yazılmışdı.

## "Fənərbaxça" meksikalı futbolçudan imtina edib



"Fənərbaxça" müqavilə bağlamaq üçün İstanbula çağırdığı Meksika millisi və "Ayntraxt"ın üzvü Marko Fabianla müqavilə imzalamaq fikrindən daşınıb. Qol.az-ın Türkiyə mətbuatına istinadən yaydığı xəbərə görə, İstanbul klubu tibbi müayinə zamanı zədə aşkarlanan 29 yaşlı futbolçudan imtina edib. Bu səbəbdən oyunçu geri qaytarılıb. Qeyd edək ki, "Fənərbaxça" Fabian üçün "Ayntraxt"a 1,5 milyon avro transfer məbləği ödəmək, futbolçu ilə isə 2 illik müqavilə imzalamaq barədə razılığa gəlmişdi.

## Azər Mirzəyev 38-ci "Conca della Presolana" festivalının vitse-çempionu adını qazanıb




Azərbaycan şahmatçısı Azər Mirzəyev İtaliyanın Bratto şəhərində keçirilən 38-ci "Conca della Presolana" festivalında 9 mümkün xaldan 6,5 xal toplayaraq, "Masters" turnirin gümüş medalçısı adını qazanıb. AZƏRTAC xəbər verir ki, Latviyadan olan beynəlxalq dərəcəli usta Vladimir Sveşnikov və ukraynalı qrossmeyster Eldar Həsənov da eyni xala sahibdirlər. Əlavə göstəricilər nəzərə alınaraq, V.Sveşnikov qalib elan olunub. Belorus Nikita Mayorov, polyak Zbiqnev Pakleza, rusiyalı Yevgeni Sveşnikov və hollandiyalı Yan Verle yarım xal geridə qalıblar. İsveçrə sistemi üzrə 9 turda keçirilən "Conca della Presolana 2018" turnirində 48 şahmatçı, o cümlədən 11 qrossmeyster iştirak edib.


Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500